AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 DEKABR 2018-ci il CÜMƏ № 274 (6307) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

# Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri









Dekabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Rusiyaya işgüzar səfərə gəlib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, dövlətimizin başçısını Sankt-Peterburq şəhərindəki Pulkovo-1 hava limanında şəhərin vitse-qubernatoru Nikolay Bondarenko, xarici əlaqələr komitəsinin nazir statuslu sədri Yevgeni Qriqoryev və digər rəsmi şəxslər qarşıladılar.

Prezident İlham Əliyev MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirak etmək üçün Prezident Kitabxanasına gəldi.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi qarşıladı.

Azərbaycan və Rusiya prezidentləri birgə foto çəkdirdilər.

Sonra MDB dövlət başçıları birgə foto çəkdirdilər.

Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü keçirildi.

Görüşdən sonra MDB dövlət başçılarının qeyri-rəsmi naharı oldu.

Dövlət başçıları Sankt-Peterburq Dövlət Akademik Mariinski Teatrında Pyotr Çaykovskinin "Şelkunçik" baletinə baxdılar.

**AZƏRTAC**

## "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1249-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1249-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** Müəyyən edilsin ki:

*3.1.* "Standartlaşdırma haqqında" Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin 5-ci hissəsinin ikinci abzasında nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

*3.2.* həmin Qanunun 6-cı maddəsinin 5-ci hissəsinin ikinci abzasında "qurum" dedikdə "Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs nəzərdə tutulur.

**4.** "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 612-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 iyun tarixli 1451 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, 6, maddə 1067) 3-cü hissəsi ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 15 noyabr 2018-ci il.**

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 1, maddə 8; 2005, N 1, maddə 1, N 8, maddə 700; 2006, N 2, maddə 70; 2008, N 2, maddə 49; 2010, N 4, maddə 265; 2012, N 1, maddə 2, N 7, maddə 651; 2013, N 12, maddə 1479; 2014, N 2, maddə 78, N 7, maddə 769, N 11, maddə 1356, N 12, maddə 1526; 2015, N 11, maddə 1259; 2016, N 4, maddə 644, N 10, maddə 1606; 2017, N 5, maddələr 709, 724, N 10, maddə 1775) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 5.2-ci maddəyə “təsisçi (bir neçə təsisçi olduqda isə, bütün təsisçilər)” sözlərindən sonra “, qanuni təmsilçi (qanuni təmsilçilər)” sözləri əlavə edilsin və həmin maddədə “onun (onların)” sözləri “onların” sözü ilə əvəz edilsin.

**2.** Aşağıdakı məzmunda 5.3.2-2-ci maddə əlavə edilsin:

“5.3.2-2. publik hüquqi şəxsin və kommersiya qurumunun hüquqi ünvanına (daimi fəaliyyət göstərən orqanının yerləşdiyi yerə) dair məlumat;”.

**3.** 5.4.5-ci maddədə “qurumun” sözü “qeyri-kommersiya qurumunun” sözləri ilə əvəz edilsin.

**4.** 5.4.6-cı maddədən “təyin edildiyi halda, onun” sözləri çıxarılsın.

**5.** 5-1.1-ci maddəyə aşağıdakı məzmunda dördüncü cümlə əlavə edilsin:

“Elektron dövlət qeydiyyatı zamanı təsisçi (təsisçilər) və qanuni təmsilçi (qanuni təmsilçilər) eyni şəxs olmadıqda, ərizə həm təsisçi (təsisçilər), həm də qanuni təmsilçi (qanuni təmsilçilər) tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiq edilməlidir.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanununun tətbiqi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1303-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

*1.2.* Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.4.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 4 dekabr 2018-ci il.**

## “Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alır:**

“Standartlaşdırma haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 2, maddə 92; 2001, N 11, maddə 683; 2004, N 2, maddə 57, N 10, maddə 761; 2007, N 10, maddə 938; 2009, N 12, maddə 948; 2014, N 10, maddə 1166; 2017, N 6, maddə 1025; 2018, N 4, maddə 643) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6-cı maddənin 5-ci hissəsinin ikinci abzasında “müvafiq icra hakimiyyəti orqanında” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda)” sözləri ilə əvəz edilsin.

**2.** 15.1.2-ci maddə ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 1 oktyabr 2018-ci il.**

# “Turkish Policy Quarterly” jurnalında Azərbaycan səfirinin TANAP-la bağlı məqaləsi dərc olunub

**Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahimin qardaş ölkədə ingilis dilində rüblük nəşr olunan “Turkish Policy Quarterly” jurnalında elmi məqaləsi dərc edilib.**

AZƏRTAC xəbər verir ki, “TANAP - enerjidən daha önəmli” sərlövhəli məqalədə Azərbaycan-Türkiyə əməkdaşlığının çoxistiqamətli dinamik inkişafından bəhs olunur. İki qardaş ölkənin birgə həyata keçirdiyi beynəlxalq iqtisadi layihələrin mahiyyətini izah edən müəllif TANAP-ın ticarət, təhlükəsizlik və digər sahələrin inkişafına verdiyi töhfələrdən yazır.




Azərbaycan-Türkiyə əlaqələri və TANAP layihəsinin qardaş ölkənin geostrateji mövqeyini gücləndirdiyini qeyd edən səfir diqqətə çatdırır ki, Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum təbii qaz kəmərləri, eləcə də Bakı-Tbilisi-Qars dəmir yolu Avrasiyada yeni bir iqtisadi münasibətlər müstəvisi formalaşdırıb.

Bildirilir ki, TANAP təkcə enerji nəqliyyat dəhlizi deyil, o, həm də digər layihələr üçün davamlı inkişaf yaradaraq dinamik hərəkətdə olan cəlbedici bir vasitədir. Müəllif Xəzərin Azərbaycan sektorunun enerji resurslarının Avropa üçün vacibliyinin artması, TANAP layihəsinin qitənin enerji bazarı üçün daha önəmli faktora çevrilməsi, layihənin Xəzər regionu, Mərkəzi Asiyada regional tərəqqi və təhlükəsizliyə verdiyi töhfələr barədə fikir və mülahizələrini bölüşür.

**AZƏRTAC**

## “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

# Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 13-cü bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 6, maddə 461; 2007, N 5, maddə 436, N 11, maddə 1053; 2008, N 5, maddə 348; 2009, N 12, maddə 948; 2011, N 7, maddə 591; 2017, N 10, maddə 1773) aşağıdakı dəyişikliklər edilsin:

**1.1.** 1.0.2-ci maddənin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı sənədsiz adlı qiymətli kağız formasında rəsmiləşdirilir;”;

**1.2.** Aşağıdakı məzmunda 1.0.3-1-ci maddə əlavə edilsin:

“1.0.3-1. daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının mülkiyyətçisi - ipoteka kağızının elektron sistemində (bundan sonra - elektron sistem) ipoteka kağızına mülkiyyət hüququ rəsmiləşdirilmiş şəxsdir;”;

**1.3.** 1.0.5-ci maddədə “qanuni sahibidir” sözlərindən sonra “(mülkiyyətçisidir)” sözü əlavə edilsin;

**1.4.** 11.4-cü maddədə hər iki halda “verilməsi” sözündən sonra “və ya rəsmiləşdirilməsi” sözləri əlavə edilsin;

**1.5.** 12-ci maddə üzrə:

1.5.1. aşağıdakı məzmunda 12.4-1-ci və 12.7-1-ci maddələr əlavə edilsin:

“12.4-1. Daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, dövlət qeydiyyatı orqanı elektron sistem vasitəsilə ipoteka kağızı haqqında məlumatları əldə edir.

12.7-1. Daşınmaz əmlak üzərində ipoteka saxlayanın hüquqları ipoteka kağızı ilə təsdiq edildikdə, ipoteka kağızında dövlət qeydiyyatını aparan orqanın adı, qeydiyyat anı (tarixi və saatı) və nömrəsi göstərilməklə, qeydiyyat orqanının səlahiyyətli şəxsinin elektron imzası ilə imzalanır və ipoteka saxlayana və ipoteka qoyana elektron sistem vasitəsilə bildiriş göndərilir.”;

1.5.2. 12.8-ci maddənin ikinci cümləsinə “ipoteka kağızının surəti” sözlərindən sonra “(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)” sözləri əlavə edilsin;

**1.6.** 14.5-ci maddədə “ipoteka kağızı üzərində” sözləri “ipoteka kağızında” sözləri ilə əvəz edilsin;

**1.7.** 17-ci maddə üzrə:

1.7.1. 17.1-ci maddənin birinci cümləsində “verilə bilər” sözləri “verilə və ya rəsmiləşdirilə bilər” sözləri ilə əvəz edilsin;

1.7.2. aşağıdakı məzmunda 17.3-1-ci maddə əlavə edilsin:

“17.3-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı elektron sistemdə elektron qaydada bu Qanunun 17.4-cü maddəsi ilə müəyyən edilmiş şəxs tərəfindən tərtib edilir və elektron sistem bu barədə ipoteka qoyana elektron bildiriş göndərir.”;

1.7.3. 17.4-cü maddənin ikinci cümləsinə “tərtib edən” sözlərindən sonra “(daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı istisna olmaqla)” sözləri əlavə edilsin;

1.7.4. aşağıdakı məzmunda 17.4-1-ci maddə əlavə edilsin:

“17.4-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.”;

1.7.5. 17.5-ci maddədə “verilməsinə” sözü “verilməsinə və ya rəsmiləşdirilməsinə” sözləri ilə əvəz edilsin;

**1.8.** 18-ci maddə üzrə:

1.8.1. 18.1-ci maddəyə “ilkin ipoteka saxlayana verilərkən” sözlərindən sonra “və ya ilkin ipoteka saxlayanın adına rəsmiləşdirilərkən,” sözləri əlavə edilsin;

1.8.2. 18.1.11-ci maddəyə “verildiyi” sözündən sonra “və ya rəsmiləşdirildiyi” sözləri əlavə edilsin;

1.8.3. 18.2-ci maddəyə “başqa şəxslərə verilməsini” sözlərindən sonra “və ya başqa şəxslərin adına rəsmiləşdirilməsini” sözləri əlavə edilsin;

1.8.4. aşağıdakı məzmunda 18.3-1-ci maddə əlavə edilsin:

“18.3-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının forması elektron sistemdə müəyyən edilir. Elektron sistemin inzibatçılığı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən həyata keçirilir.”;

1.8.5. 18.4-cü maddənin birinci cümləsinə “verilməsini” sözündən sonra “və ya rəsmiləşdirilməsini” sözləri əlavə edilsin;

**1.9.** aşağıdakı məzmunda 19.1-1-ci maddə əlavə edilsin:

“19.1-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının dövlət qeydiyyatı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır.”;

**1.10.** aşağıdakı məzmunda 20.1-1-ci və 20.2-1-ci maddələr əlavə edilsin:

“20.1-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqların verilməsi elektron sistemdə ipoteka kağızında digər şəxsin xeyrinə elektron imza ilə verilmə qeydinin (indossamentin) edilməsi və bu şəxsə elektron sistemdə bildiriş göndərilməsi yolu ilə həyata keçirilir.

20.2-1. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı üzrə hüquqlar başqa şəxsin adına rəsmiləşdirildikdə, ipoteka müqaviləsi həmin şəxsə təqdim edilir və həmin şəxs ipoteka müqaviləsi üzrə ipoteka saxlayanın bütün hüquq və vəzifələrini əldə edir.”;

**1.11.** Aşağıdakı məzmunda 21.1-1-ci, 21.2-1-ci və 21.5-1-ci maddələr əlavə edilsin:

“21.1-1. Daşınmaz əmlaka münasibətdə ipoteka saxlayan elektron sistemdə ipoteka kağızında əsas öhdəliyin icrası barədə qeydlər aparmalıdır. Həmin qeydlər barədə ipoteka qoyana elektron sistem vasitəsilə bildiriş göndərilməlidir.

21.2-1. Elektron sistemdə daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızında əsas öhdəliyin qismən icrası barədə qeydin və ya başqa cür təsdiqin olması göstərir ki, bu öhdəlik və ya onun müvafiq hissəsi icra edilmişdir. Elektron sistemdə ipoteka kağızına xitam verilməsi əsas öhdəliyin yerinə yetirilməsini təsdiq edir.

21.5-1. Bu Qanuna uyğun olaraq daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızına xitam verildikdə, ipotekanın dövlət qeydiyyatını aparan orqan müvafiq reyestrdə qeydlər aparmalıdır.”;

**1.12.** 23-cü maddənin mətni 23.1-ci maddə hesab edilsin və aşağıdakı məzmunda 23.2-ci maddə əlavə edilsin:

“23.2. Daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızına elektron sistemdə ipoteka saxlayan tərəfindən könüllü olaraq və ya bu Qanunun 48-ci maddəsində nəzərdə tutulmuş hallarda xitam verilir.”;

**1.13.** 35.1.2-ci, 36.2.3-cü və 38.1-ci maddələrə “verildiyi” sözündən sonra “və ya rəsmiləşdirildiyi” sözləri əlavə edilsin.

**Maddə 2.** Keçid müddəaları

**2.1.** Bu Qanun qüvvəyə mindiyi tarixədək dövlət qeydiyyatına alınmış daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızı öz hüquqi qüvvəsini saxlayır.

**2.2.** “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 1.0.3-1-ci maddəsində nəzərdə tutulan elektron sistem fəaliyyətə başlayana qədər daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının dövlət qeydiyyatı bu Qanun qüvvəyə mindiyi tarixədək “İpoteka haqqında” Azərbaycan Respublikası Qanunu ilə müəyyən olunmuş qaydada həyata keçirilir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 30 oktyabr 2018-ci il.**

## “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanununun tətbiqi və “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 iyun tarixli 252 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 oktyabr tarixli 1298-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

*1.1.* üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.3. “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 17.4-1-ci maddəsinə uyğun olaraq, daşınmaz əmlak üzərində ipoteka hüququnu təsbit edən ipoteka kağızının tərtib edilməsi qaydasını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.1.4. Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə birlikdə həmin Qanunun 1.0.3-1-ci maddəsində nəzərdə tutulan elektron sistemin fəaliyyətə başlamasının təmin edilməsi ilə bağlı tədbirlər görsün;

*1.2.* mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

*1.3.* həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**3.** “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 iyun tarixli 252 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, N 6, maddə 489) 2-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

“2. Müəyyən edilsin ki:

2.1. “İpoteka haqqında” Azərbaycan Respublikası Qanununun 17.4-1-ci maddəsində, 18.3-1-ci maddəsinin ikinci cümləsində və 19.1-1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

2.2. həmin Qanunun 18.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.3. həmin Qanunun 17.4-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

2.4. həmin Qanunun 18.3-1-ci maddəsinin ikinci cümləsində və 19.1-1-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi nəzərdə tutulur.”.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 4 dekabr 2018-ci il.**

# Bərəkətli torpağımızın hər qarışından səmərəli istifadə olunmalıdır

## Ulu öndər Heydər Əliyevin xalqın rifahı naminə müəyyənləşdirdiyi bu mühüm strateji xətt uğurla davam etdirilir

**Azərbaycanın zəngin təbii sərvətləri, bərəkətli torpaqları, zəhmətkeş insanları ölkənin ərzaq məhsulları ilə tam təmin olunması, əhalinin bolluq və firavanlıq içərisində yaşaması üçün geniş imkanlar açır. Ölkəmizin aqrar potensialının dəqiq müəyyənləşdirilməsi və ondan səmərəli istifadə edilməsi üçün elmi əsaslara söykənən vacib və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə ötən əsrin 70-ci illərində, ulu öndər Heydər Əliyevin respublika rəhbəri olduğu dövrdə başlanmışdır. Xalqımızın dahi oğlunun, dünya şöhrətli siyasətçinin vəfatının 15-ci ildönümü ərəfəsində onun şərəfli ömrünün və siyasi fəaliyyətinin bütün məqamlarını qürur və minnətdarlıq hissi ilə xatırlayarkən bu gerçəkliyi də qeyd etmək vacibdir. Öz vətəninə və millətinə ürəkdən bağlı olan ulu öndərimiz Azərbaycanın münbit torpağının xüsusiyyətlərini gözəl bilir, ona çəkilən zəhmətin bol bəhrə verəcəyinə, kəndli əməyinin xarüqələr yaradacağına inanır, bu sahəyə güclü dövlət qayğısı göstərilməsini təmin edirdi. Sovet dövründə də belə idi, müstəqillik illərində də...**



İlk dəfə respublika rəhbəri seçildiyi 1969-cu ildən başlayaraq Heydər Əliyev, milli iqtisadiyyatın bütün sahələri kimi, ciddi tənəzzül keçirən kənd təsərrüfatını da dirçəltməyi qarşıya məqsəd qoymuş və buna nail olmuşdur. Məhz onun təşəbbüsü ilə keçmiş sovet hökuməti 1970-ci ildə Azərbaycanda kənd təsərrüfatının inkişaf etdirilməsi tədbirləri barədə xüsusi qərar qəbul etmişdi, bu qərar əsasında respublikanın aqrar ehtiyacları üçün kifayət qədər texnika, yanacaq, ehtiyat hissələri, tikinti materialları, mineral gübrə, kimyəvi preparatlar ayrılmışdı. Müdrik və uzaqgörən rəhbərin qətiyyətlə həyata keçirdiyi məqsədyönlü tədbirlər taxılçılıqda, pambıqçılıqda, üzümçülükdə olduğu kimi, bağçılıq və bostançılıq məhsulları, meyvə-tərəvəz istehsalında da intensiv metodların tətbiqinə və nəticədə məhsuldarlığın yüksəldilməsinə gətirib çıxarmışdı. 1969-1982-ci illərin statistikasına nəzər salsaq görərik ki, həmin dövrdə tərəvəz istehsalı 2,5, meyvə və giləmeyvə istehsalı 6,6, üzüm istehsalı 6,7, çay istehsalı 2,8 dəfə, heyvandarlıq məhsulları istehsalı 2,7 dəfə artmışdı. Meyvə-tərəvəz istehsalı 1970-ci ildə 410 min ton olmuşdusa, 1982-ci ilə bu göstərici 850 min tona yüksəlmişdi. Heydər Əliyev sübut etdi ki, azərbaycanlıların istedadı və zəhməti torpağın bərəkətini birəbeş artırmağa qadirdir. O vaxtın canlı şahidləri yaxşı xatırlayırlar ki, ulu öndər təbii-coğrafi şəraiti, tarixi əkinçilik ənənələrini əsas götürərək bölgələrimizin müxtəlif kənd təsərrüfatı məhsulları üzrə ixtisaslaşmasına nail olmuşdu. Məsələn, özünün bostan-tərəvəz məhsullarını keçmiş sovet dövlətinin müxtəlif guşələrinə göndərən cənub bölgəsi "ümumittifaq bostanı" adlandırılırdı. Quba-Xaçmaz tumlu meyvələr, Şəki-Zaqatala qərzəkli meyvələr (qoz, fındıq, şabalıd), Naxçıvan çəyirdəkli meyvələr (ərik, şaftalı), Kür-Araz ovalığı quru subtropik meyvələr (heyva, nar), Lənkəran-Astara sitrus meyvələri (limon, portağal, naringi, feyxoa), Abşeron yarımadası püstə, badam, əncir, zeytun meyvələri üzrə ixtisaslaşmışdılar. Bu gün də həmin ənənələr öz əhəmiyyətini itirməyib, ölkəmizin ərzaqla təminatında və xarici ticarətində mühüm rol oynayır.

Kənd təsərrüfatının vüsətli inkişafı xalqın güzəranının yaxşılaşmasına, rifahının yüksəlməsinə birbaşa təsir göstərir, zəhmətkeş insanlara layiqli həyat şəraiti bəxş edir, onların maddi qazanclarının artmasına, həmçinin keçmiş sovet dövlətindən yüksək mükafatlar almasına imkan yaradırdı. Ulu öndər Heydər Əliyevin gələcəyə yönələn milli inkişaf strategiyasının tərkib hissəsi kimi bu amillər torpağına qırılmaz tellərlə bağlı olan azərbaycanlıların öz maddi-mənəvi zənginliyi ilə digər xalqlardan üstün mövqeyə çıxmasına, bölgədə mövqeyini möhkəmləndirməsinə xidmət edirdi.

Məlum olduğu kimi, sovet dövründə kənd təsərrüfatı və ərzaq məhsullarının tədarükü və təchizatı ilə "tədarük kontorları" adlanan xüsusi müəssisələr məşğul olurdu. Tərkibinə həmin müəssisələrin də daxil olduğu istehlak kooperasiyası sistemi Azərbaycanda ən yüksək inkişaf səviyyəsinə məhz ulu öndər Heydər Əliyevin respublikaya ilk dəfə rəhbərlik etdiyi dövrdə çatmışdır. O vaxt tədarük məntəqələri ərzaq bolluğunun yaradılmasına müsbət təsir göstərməklə yanaşı, xüsusən, kənd əhalisinin məşğulluğunun təmin edilməsində də əhəmiyyətli rol oynayırdı.

Ulu öndər Heydər Əliyevin müdrik rəhbərliyi ilə sovet hakimiyyəti dövründə respublikamızda bütün sahələrdə, o cümlədən kənd təsərrüfatı və ərzaq təminatı sahəsində yaradılmış potensialın, əldə olunmuş təcrübənin müstəqil dövlətçiliyin bərpasından sonra da xalqımız üçün misilsiz faydaları oldu. Lakin, təəssüf ki, müstəqilliyin bərpası ərəfəsində və sonrakı ilk illərdə Azərbaycanda hökm sürən xaos və özbaşınalıq, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə Heydər Əliyevin milli inkişaf ideyalarına zidd əməllərə yol verilməsi, həmin dövrdə respublikaya rəhbərlik edən şəxslərin bacarıqsızlığı, səbatsızlığı mövcud maddi-mənəvi potensialın qismən itirilməsi ilə nəticələndi. Ermənistanın ölkəmizə hərbi təcavüzü, azərbaycanlıların tarixi torpaqlarından qovulub çıxarılması, Dağlıq Qarabağın və ətrafındakı ərazilərin işğala, oradakı soydaşlarımızın zorakılığa, qətl, qarət və soyqırımına məruz qalması, vətəndaş müharibəsi və müstəqilliyin süqutu təhlükəsinin yaranması, xalqımızın, hətta çörəklə sınağa çəkilməsi məhz Heydər Əliyevin siyasi hakimiyyətdən təcrid edildiyi dövrün hələ də ağrısını çəkdiyimiz bəlaları kimi tarixə düşmüşdür.

Keçmiş sovet rəhbəri Qorbaçovun və komandasının həsəd və paxıllıq hissi ilə Heydər Əliyevə qarşı təqiblərə başlamasının, onun yüksək dövlət vəzifələrindən istefasına nail olmasının Qarabağda erməni separatizmini dirçəltməsi, sonradan ittifaq dövlətinin təməlinin sarsılmasında və süqutunun sürətlənməsində separatizmin mühüm təsiredici amilə çevrilməsi tarixi gerçəklikdir. Xalqımızın böyük oğlu həmin vaxt Moskvadan Bakıya qayıtmış, burada isə respublikanın o vaxtkı nankor başçılarının tələbi ilə doğma Naxçıvana getmiş, muxtar respublikanın əhalisi tərəfindən hədsiz sevgi və ehtiramla qarşılanmışdı. Ulu öndərin gəlişi blokadaya alınmış Naxçıvanın ağır günlərində hər cür məhrumiyyətə mərdliklə sinə gərən həmyerlilərinə, sözün həqiqi mənasında, ümid, inam bəxş etdi. Elə Azərbaycanın müstəqil dövlətçiliyinin xilas, qurtuluş yolu da Naxçıvandan başladı: dövlətçilik rəmzlərinin bərpasından başlamış, ta bu gün ölkəmizin ən güclü və nüfuzlu siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyasının yaranmasına qədər bir çox şanlı səhifələr Heydər Əliyevin Naxçıvandakı siyasi fəaliyyəti dövründə yazıldı...

Qurtuluş hərəkatının qələbəsindən, ulu öndərin Azərbaycanda rəhbərliyə qayıdışından sonra xalqımızın həyatında yeni bir dövr başlandı. Heydər Əliyev özünün müdrik və cəsarətli qərarları ilə qısa vaxtda respublikamızda ictimai-siyasi sabitliyi bərpa etdi, ümummilli inkişaf üçün aydın yollar müəyyənləşdirdi. Ölkəmizin və xalqımızın taleyində həlledici rol oynayan "Əsrin müqaviləsi"nin imzalanması müstəqil dövlətimizin iqtisadi tərəqqisi üçün möhkəm təməl oldu. Neft və qeyri-neft sənayesi ilə yanaşı, aqrar sektorun, kənd təsərrüfatının da yeni iqtisadi münasibətlər zəminində dirçəldilməsi qarşıya mühüm vəzifə kimi qoyuldu. Ulu öndər 1994-cü ilin sentyabrında kənd təsərrüfatı məsələlərinə həsr edilmiş ümumrespublika müşavirəsindəki çıxışında Azərbaycan torpağının nəyə qadir olduğunu vaxtilə xalqın gördüyünü xatırladaraq demişdi: *"Respublikanın kənd təsərrüfatı potensialından, imkanlarından istifadə etmək bizim, sizin, kənd əhalisinin, bu sahədə çalışan mütəxəssislərin, alimlərin borcudur. Çünki kənd təsərrüfatı məhsulları Azərbaycan əhalisinin ərzaqla, sənayemizin bir çox sahəsinin xammalla təmin olunması üçün lazımdır və biz kənd təsərrüfatının bu imkanlarından səmərəli və maksimum dərəcədə istifadə etməliyik".*

Məhz həmin müşavirədə ulu öndər ölkəmizdə aqrar islahatlara başlanmasının zəruriliyini bəyan etmiş, özəlləşdirmə və fərdi sektorun inkişaf etməsi vasitəsilə məhsuldarlığı artırmağı strateji xətt kimi müəyyənləşdirmişdi. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev ilk dəfə 1992-ci ildə Naxçıvanda aqrar islahatlara başlanması barədə Ali Məclisin xüsusi qərarının çıxarılmasına nail olmuşdu. Ümumrespublika miqyasında da aqrar islahatların həyata keçirilməsi, xüsusən, torpaq islahatının aparılması üçün məhz ulu öndərin təşəbbüsü ilə zəruri hüquqi baza yaradıldı, qanunlar qəbul edildi, onların icra mexanizmi müəyyənləşdirildi. Bu, postsovet məkanında ilk cəsarətli addım idi və Heydər Əliyev özü aparılan islahatın məqsədinin "torpağı və mülkiyyəti əzəl sahiblərinə, torpaqda yaşayanlara və işləyənlərə qaytarmaq" olduğunu bəyan etdi. Kəndlinin torpağa həqiqi sahiblik hüququ qazanması 1996-cı ildən başlayaraq kənd təsərrüfatı məhsulları istehsalının artmasına səbəb oldu. Sonrakı mərhələdə isə ulu öndər ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsini təxirəsalınmaz vəzifə kimi müəyyənləşdirdi və 2001-ci ildə "Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı" qəbul olundu. Bu sahədə ilk mükəmməl sənəd kimi Proqram əhalinin ərzaqla təminatının yaxşılaşdırılması və ərzaq məhsullarından səmərəli istifadə edilməsi ilə yanaşı, yoxsulluğun azaldılmasını nəzərdə tuturdu. Proqram çərçivəsində görülmüş işlər nəticəsində kənd təsərrüfatı və ərzaq məhsullarının istehsalı əhəmiyyətli dərəcədə artdı.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər sabitlik və inkişaf dövrü kimi müasir tariximizə qızıl hərflərlə həkk olunmuşdur. Möhtərəm Prezident cənab İlham Əliyev ulu öndərin həmin dövrdəki siyasi və dövlətçilik fəaliyyətini dəyərləndirərkən demişdir: *"Heydər Əliyev bir daha göstərdi ki, ən ağır, böhranlı vəziyyətdən çıxış yolu var. O da düşünülmüş siyasətdir, cəsarətdir, müstəqil siyasət və addımlardır".* Bu siyasət nəticəsində Azərbaycan kəndinin yeni siması müəyyənləşdi, torpaqdan səmərəli istifadə üçün geniş imkanlar açan azad sahibkarlar təbəqəsi formalaşdı, ölkəmizin ərzaq təhlükəsizliyi üçün təminatlar yaradıldı.

Ulu öndər vəfatından bir müddət əvvəl, 2003-cü ilin növbəti prezident seçkiləri ərəfəsində xalqa müraciətində bu yüksək vəzifəyə cənab İlham Əliyevin seçilməsini tövsiyə edərkən özünün axıra çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri onun başa çatdıra biləcəyinə qəti inamını ifadə etmişdi. Dahi rəhbərin inamının, xalqın ümidlərinin doğrulduğunu Azərbaycanın son 15 ildəki misilsiz nailiyyətləri parlaq şəkildə sübut etməkdədir. Ulu öndərin müstəqil dövlətçilik və hərtərəfli milli inkişaf strategiyasını yeni dövrün çağırışları və qlobal trendləri əsasında daha da zənginləşdirərək qətiyyətlə və uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyev özü bu barədə demişdir: *"2003-cü ildə Azərbaycan xalqı mənə böyük etimad göstərmişdir və o gündən bu günə qədər çalışıram ki, bu etimadı doğruldum. 2003-cü ildə prezident seçkiləri ərəfəsində söz vermişdim ki, əgər xalq etimad göstərərsə, Heydər Əliyev siyasəti Azərbaycanda davam etdiriləcəkdir. Fəxr edirəm ki, sözümə əməl etdim və son 15 il ərzində Azərbaycan Heydər Əliyevin qoyduğu yolla uğurla, inamla gedir".* Ölkəmizin bütün dünyada etiraf edilən uğurlarının, dinamik inkişafının təməlində Heydər Əliyev ideyalarına əsaslanan xalq-iqtidar birliyi dayanır.

Prezident İlham Əliyevin iqtisadi siyasətində kənd təsərrüfatının inkişafı, ölkəmizin əsas ərzaq məhsullarına tələbatının tamamilə daxili istehsal hesabına ödənilməsi və bəzi məhsulların ixracının təmin olunması prioritet istiqamətlərdəndir. Ölkə əhalisinin həyat səviyyəsi yaxşılaşdıqca, real pul gəlirləri artdıqca ərzaq məhsullarına tələbat çoxalır, ərzaq bazarı genişlənir. Dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə 2008-2015-ci illərdə əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair xüsusi Dövlət Proqramı icra edilmişdir. Dövlət Proqramının əsas məqsədi ölkənin hər bir vətəndaşının sağlam və məhsuldar həyat tərzi üçün onun qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə tam təmin edilməsi olmuş, qarşıya qoyulan vəzifələr əsasən yerinə yetirilmişdir.

Bu sahədə növbəti mərhələ isə kənd təsərrüfatı məhsullarının istehsalını və emalını stimullaşdırmaq, kənd təsərrüfatı məhsulları istehsalçılarının inkişafını təmin etmək, ərzaq məhsullarının keyfiyyətini daha da artırmaq, regionlarda kənd təsərrüfatı ilə məşğul olan əhalinin sosial rifahının yaxşılaşdırılmasına zəmin yaratmaq, dövlət sifarişi ilə ərzaq məhsullarının satın alınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini və dövlət vəsaitlərindən səmərəli istifadəni təmin etmək məqsədi ilə "Ərzaq məhsullarının tədarükü və təchizati" ASC-nin yaradılması olmuşdur. Real fəaliyyət göstərdiyi iki ildən artıq müddət ərzində səhmdar cəmiyyət dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilmiş məqsəd və vəzifələri layiqincə yerinə yetirməklə yanaşı, Azərbaycanın kənd təsərrüfatı və ərzaq məhsullarının ixracı və xarici investorların ölkənin aqrar sektoruna cəlb olunması üçün ciddi iş aparır.

Möhtərəm Prezident cənab İlham Əliyev kənd təsərrüfatı işçiləri ilə görüşlərinin birində demişdir: *"Bu gün bütün ölkələr ərzaq təhlükəsizliyi ilə bağlı müəyyən narahatlıqlar yaşayırlar. Çünki dünyada əhali artdıqca tələbat da artır, torpaq sahəsi isə artmır. Əlbəttə ki, bu artan tələbatı ödəmək üçün çox ciddi addımlar atılmalıdır. Bizim o qədər də böyük torpaq sahəmiz yoxdur. Ona görə biz hər qarış torpaqdan səmərəli istifadə etməliyik. Bir qarış torpaq da boş qalmamalıdır".* Dövlətimizin başçısının bu çağırışını və kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsində müəyyən edilmiş hədəfləri əsas götürərək biz Azərbaycanın kənd təsərrüfatı məhsulları idxalçısından ixracatçısına çevrilməsinə öz töhfəmizi verməyə çalışırıq.

...Bu gün ulu öndərin əziz xatirəsini yad edərkən xalqımızın və dövlətimizin gələcəyi ilə bağlı onun arzularının, məqsəd və ideyalarının dolğun bir şəkildə gerçəkləşməsinə görə qürur hissi keçiririk. Heydər Əliyevin adı ilə bağlı hər nə varsa, Azərbaycanın yüksəlişinə, dövlətimizin güclənməsinə və qüdrətlənməsinə xidmət edir. Ulu öndərin yaratdığı, onun layiqli siyasi varisi cənab İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası özünün 700 min üzvü ilə cəmiyyətimizdə alternativsiz siyasi güc mənbəyidir. Azərbaycanın Birinci vitse-prezidenti, UNESCO-nun və İSESCO-nun sülhməramlı səfiri Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu nəinki ölkəmizin və xalqımızın sosial-mədəni həyatında əvəzsiz yer tutur, özünün xeyriyyəçilik və maarifçilik fəaliyyəti ilə mədəniyyətimizin, təhsilimizin, səhiyyəmizin inkişafına misilsiz töhfələr verir, həm də ümumbəşəri dəyərlərə göstərdiyi diqqət və qayğıya görə beynəlxalq miqyasda böyük nüfuz və etimad qazanmışdır. Fondun vitse-prezidenti Leyla Əliyeva müasir gəncliyimizin lideri kimi çoxşaxəli ictimai fəaliyyəti ilə Azərbaycanın hüdudlarından kənarda da yaxşı tanınır, xalqımızın həqiqətlərinin dünya birliyinə çatdırılması üçün yorulmadan fəal iş aparır.

Ulu öndər Heydər Əliyev banisi və qurucusu olduğu müstəqil dövlətimizin ərazi bütövlüyünün təmin olunması üçün başladığı və axıra çatdıra bilmədiyi mübarizənin də davamçıları tərəfindən xalqımızın maraq və mənafelərinə uyğun şəkildə uğura qovuşdurulacağına inanırdı. Cənab Prezident İlham Əliyevin apardığı siyasət tezliklə bu uğurun əldə edilməsinə yönəlmişdir. Milli birliyimiz, iqtisadi və hərbi gücümüzlə tarixi torpaqlarımızı təcavüzkar Ermənistanın işğalından azad edəcəyimiz gün uzaqda deyildir.

Azərbaycan bu gün bütün istiqamətlərdə uğurla inkişaf edir və bu inkişafın təməlində ulu öndər Heydər Əliyev ideyaları, Heydər Əliyev irsi dayanır. Xalqımız və dövlətimiz bu ideyalara daim sadiq olacaq, cənab Prezident İlham Əliyevin ətrafındakı sıx və monolit birliyini qoruyub saxlamaqla zirvədən-zirvəyə addımlayacaqdır.

**Əbülfət QOCAYEV,**
**"Ərzaq məhsullarının tədarükü və təchizatı" ASC-nin İdarə Heyətinin sədri.**

---

*Yuri Lujkov:*

# Heydər Əliyev böyük qəlbli insan idi

**Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dünyasını dəyişdiyi gündən 15 il keçir. "Moskva-Baku" portalında Moskvanın keçmiş meri Yuri Lujkovun bu böyük siyasi xadim haqqında xatirələri dərc olunub. AZƏRTAC həmin materialı təqdim edir.**

### Heydər Əliyev haqqında söz

Dahi insan Heydər Əliyev haqqında xatirələrimin əvvəlində çox sevdiyim ölkənin - Azərbaycanın vətəndaşlarını salamlamaq istəyirəm: "Salam, əziz azərbaycanlı dostlarım!"

Mən Heydər Əliyev haqqında danışmaq istərdim. Çünki Heydər Əliyev görkəmli şəxsiyyət idi. Özü də təkcə postsovet məkanında yox. Mən uzun illər sənaye sahəsində işləmişəm, Sovet İttifaqının ali dövlət hakimiyyəti orqanları ilə illər boyu qarşılıqlı fəaliyyətdə olmuşam və Heydər Əliyevi hələ sovet dövründən tanıyırdım. Heydər Əliyev haqqında çox danışmaq olar, bununla belə, düşünürəm ki, hərtərəfli, nadir şəxsi keyfiyyətlərinə, şəxsi qabiliyyətlərinə və elə bu səbəbdən dərin dövləti təfəkkürünə görə bu bənzərsiz insanın obrazını tam açmaq üçün vaxt çatmaz.

O, nadir potensiala malik insan idi. Tutduğu vəzifəsinə görə həm təhlükəsizlik, həm də təsərrüfat məsələləri ilə çox ciddi məşğul olan bənzərsiz şəxsiyyət idi. Mən bilirdim ki, Heydər Əliyevin əsas təhsili mülki sahəyə aiddir. O, memarlığa, iqtisadiyyata dərindən bələd idi... Həmin illərdə onun çalışdığı simasız hökumətdə olduqca nəzərəçarpan fiqur idi.

Heydər Əliyevin sovet hökumətinin ali rəhbərliyində işlədiyi beş il ərzində biz onun potensialına, hamını heyrətləndirən yaddaşına, təsərrüfatçılıq təfəkkürünə dönə-dönə müraciət edirdik. O, dövlətin, ölkə iqtisadiyyatının inkişafına kömək edirdi.

Deməliyəm ki, yeni dövr onun üçün faciəli illər idi... 1990-cı il 20 Yanvar hadisələri... Bu hadisələr Heydər Əliyevi çox həyəcanlandırdı. Şəxsiyyətinə və baxışlar sisteminə, təfəkkürünə, prinsiplərinə, məqsədlərinə təsir göstərən bu hadisələr onu Sovet İttifaqı rəhbərliyinin, ilk növbədə, Mixail Qorbaçovun ümumən yanaşı yaşayan iki yaxın millət - azərbaycanlılar və ermənilər arasında yaranmış problemi dinc yolla həll etməyi, münaqişəni sülh yolu ilə nizamlamağı bacarmamasına qarşı etiraz səsini ucaltmağa vadar etdi. Sovet rəhbərliyi, çox ehtimal ki, dövləti məsələləri həll etməyə qabil olmaması səbəbindən bu problemləri çözə bilmədi, bəlkə də bunu istəmədi, vəziyyəti idarə etməyi, qan tökülməsini dayandırmağı bacarmadı.

Heydər Əliyev bu hadisələrə görə çox əzab çəkirdi. Bunu dəfələrlə mənə demişdi. Bu əzablar 1991-ci ildə onun Sov.İKP sıralarından çıxması ilə nəticələndi. Bu qərar dövlət hakimiyyəti orqanlarının yürütdüyü siyasətə qarşı çox güclü etiraz kimi səsləndi.

Sonra Sovet İttifaqı süqut etdi, onun yerində Azərbaycan da daxil olmaqla müstəqil dövlətlər formalaşdı. Bütün bunlar siyasi və xüsusən təsərrüfat-iqtisadi baxımdan çox mürəkkəb və qarmaqarışıq şəraitdə baş verirdi. Sonra Elçibəy peyda oldu. Mən onunla görüşdüm və bir məqamı hələ də təəccüblə xatırlayıram ki, Elçibəy mənimlə tərcüməçi vasitəsilə danışmağa başladı. Halbuki mən ərzaq məsələlərinin həllində Azərbaycana kömək etməyə gəlmişdim... Elçibəy tərəfindən bu cür nümayişkaranə hərəkətin heç yeri deyildi. Azərbaycan xalqı onu həqiqi dövlət rəhbəri kimi qəbul etmədi və 1993-cü ildə Heydər Əliyev hakimiyyətə qayıtdı.

Heydər Əliyev özünün çox böyük potensiala malik olduğunu dərk etsə də, o vaxta qədər bəlkə də ölkə rəhbərliyinə qayıtmaq fikrində deyildi. Lakin o, Azərbaycan xalqının tələbi ilə hakimiyyətə qayıtdı!

Bundan sonra mənim Azərbaycanda görüşlərim çox olub. Heydər Əliyevin hakimiyyətə qayıtması sayəsində Azərbaycan sürətlə dirçəldi. Nəyin hesabına? Heydər Əliyevin müdrikliyi hesabına. Heydər Əliyev strateq idi, o düzgün başa düşürdü ki, iqtisadiyyatı inkişaf etdirmək, ərzaq təminatı üçün, xalqın yaşaması, tikinti, sənaye və bütün başqa sahələrin inkişafı üçün vəsait əldə etməyə imkan verəcək təsərrüfatı inkişaf etdirmək lazımdır.




Heydər Əliyevin daha bir keyfiyyəti haqqında danışmaq istəyirəm. Heydər Əliyev öz xalqının oğlu, millətin lideri idi.

Azərbaycanı inkişaf etdirməklə, onun suverenliyini möhkəmləndirməklə məşğul olan Heydər Əliyev, eyni zamanda, Rusiya ilə, rus xalqı ilə əlaqələri heç vaxt, heç bir vəchlə itirmək istəmirdi. Xalqlarımız onilliklər boyu birgə olub. Biz faşizmə qarşı birlikdə vuruşmuşuq. Böyük Vətən müharibəsi illərində Bakı bütün hərbi texnikanın yanacaqla təmin olunması məsələlərinin həllinə kömək edib. Əbəs deyil ki, almanlar neft mədənlərini ələ keçirmək üçün Bakıya can atırdılar. Bu gün biz ortaq tariximizi yadda saxlamalıyıq. Əgər bu gün bir-birimizə - Azərbaycanın və Rusiyanın bir-birinə yaxın xalqlarına kömək göstərmək üçün bizim az da olsa imkanımız varsa, bunu etməliyik.

Bakıda Moskva Günləri keçirilməsi ilə əlaqədar Heydər Əliyev dəfələrlə bizim hakimiyyət orqanlarını Bakıya dəvət edirdi. Belə günlər həmişə böyük dostluq, qardaşlıq bayramlarına çevrilirdi. O özü şəxsən bu tədbirlərdə iştirak edir, həmin vaxt diqqət mərkəzində olan zallarda həmişə mənim yanımda əyləşirdi. Bu tədbirlərdə xalqlarımızın dostluğu davam edir, təsdiqlənirdi.

Bu gün sizinlə böyük dövlət xadimi haqqında danışırıq. Sovet İttifaqı dağılandan sonra yaranmış dövlətlərin rəhbərləri arasında öz xalqı üçün Heydər Əliyev qədər çox iş görmüş, yeni ölkənin inkişaf etməsi üçün əlindən gələni etmiş insanlar çox deyil, ola bilsin, daha birini, ən çoxu ikisini göstərmək olar, onların adlarını çəkməyəcəyəm. Amma mənim nəzərimdə və yaddaşımda Heydər Əliyev bir nömrəli rəhbərdir.

Biz Heydər Əliyev haqqında ölkənin rəhbəri kimi danışanda onu, ilk növbədə, şəxsiyyət kimi, güclü iradə sahibi, irəliyə baxan, hamıdan uzağı görən bir insan kimi qəbul edirik. Ona görə ki, belə də olmalıdır. Lider öz xalqını səslədiyi gələcəyi görməlidir. Lider mərd insan olmalıdır. Lakin daha bir məqamı qeyd etməsəm, Heydər Əliyevin obrazı yarımçıq olar...

Sizə bir əhvalat danışım... Zənnimcə, Azərbaycanda bunu hamı bilmir.

Heydər Əliyev gözəl ailə başçısı idi. Onun həyat yoldaşı Zərifə Əziz qızı Əliyeva gözəl qadın idi. Zərifə xanım həyatdan çox tez getdi və bu, Heydər Əliyevi çox sarsıtdı, çox kədərləndirdi. Zərifə Əziz qızı əvvəlcə Moskvada, Novodeviçye qəbiristanlığında dəfn edilmişdi. Heydər Əliyev hər həftə vaxt tapan kimi Novodeviçye qəbiristanlığına gəlir, sevimli ömür-gün yoldaşının məzarı yanında bir neçə dəqiqə əyləşirdi. Dövlət xadimi üçün, bizim nəzərimizdə emosiyalardan uzaq, yalnız dövlət haqqında, genişmiqyaslı dünya problemləri haqqında danışan dövlət xadimi üçün belə incə hisslər, ailəsinə bu cür münasibət tamamilə qeyri-adi təsir bağışlayır.

Sizə daha bir əhvalat danışım. Bunu yalnız Heydər Əliyevlə mən bilirdik. Bir də, yəqin ki, onun ailə üzvləri, uşaqları bilir. Biz Heydər Əliyevlə yaxın dost idik. Bir dəfə o, Moskva ilə əlaqələri inkişaf etdirmək üçün məni Azərbaycana, Bakıya dəvət etdi. Bakıya belə səfərlərimin birində ona qeyri-adi hədiyyə gətirdim. Mən onun xanımının büstünü tapmışdım. Heydər Əliyev bu büstün olmasını bilmirdi. Kifayət qədər böyük tunc büst Zərifə xanımın sağlığında hazırlanmışdı. Bu büstü mənimlə çox yaxın münasibətdə olan məşhur heykəltəraşın emalatxanasında tapmışdım. Heydər Əliyevin dəvəti ilə Bakıya gəldim. Məni müşayiət edən adamlardan xahiş etdim ki, bu büstü Heydər Əliyevlə görüşəcəyim yerin yaxınlığında bir otağa qoysunlar. Heydər Əliyev söhbətdən sonra soruşdu ki, indi və bu axşam planlarım necədir? O, həmin gün axşam da mənimlə söhbət etmək istəyirdi. Dedim ki, hökumət üzvləri ilə görüşüb bizim ticari-iqtisadi əlaqələrimizə aid məsələləri müzakirə etmək, sonra Mədəniyyət Nazirliyində olmaq istəyirəm. Heydər Əliyev dedi: "Yaxşı, onda axşama qədər". Mən ona müraciət etdim: "Heydər Əliyeviç, yox, sizə daha bir hədiyyə etmək istəyirəm". O cavab verdi: "Bu nəyə lazımdır, onsuz da biz yaxınıq, qarşılıqlı münasibətlərimiz yaxşıdır. Hədiyyə nəyə gərəkdir? Məncə, bizim münasibətlərimizdə bütün bunlar artıqdır". Mən dedim: "Heydər Əliyeviç, gəlin qonşu otağa keçək və düşünürəm ki, bu hədiyyəni nə üçün etmək istədiyimi başa düşərsiniz".

Biz qonşu otağa keçdik. Mən Zərifə Əziz qızının büstünün üstündəki örtüyü götürdüm və ... Heydər Əliyevin gözlərindən axan yaşı, sonra onun hönkürməsini gördüm.

Bilirsinizmi, o, öz məhəbbətini gördü, gördü ki, bu sevgi fiziki baxımdan ötüb keçsə də, belə gözəl maddi təcəssümünü tapıb... Bütün bunlar məni də çox həyəcanlandırdı. Mən anladım ki, qarşımdakı insan nəinki emosiyalara malikdir, o, öz həyat yoldaşını, övladlarını, xalqını həqiqi mənada sevən insandır. Ulu Tanrı Heydər Əliyevə təkcə müdriklik, güclü dövlət təfəkkürü bəxş etməyib. Bununla yanaşı, bir daha təkrar edirəm, o, insanların taleyinə görə bizim zəmanədə heç kimlə müqayisə edilə bilməyəcək dərəcədə narahatlıq hissi yaşayan, adı böyük hərflə yazılan İnsandır. Onun xatirəsi, təkcə onunla ünsiyyətdə olanların deyil, bizim xalqlarımızın qəlbində əbədi yaşamalıdır. Belə insanlar tarixdə iz qoymaya bilməzlər, onlar tarixdə öz yerini tutmalı və təkcə hansısa bir ölkənin ali rəhbərləri üçün deyil, bütün sadə adamlar üçün, həm Azərbaycanın, həm də əvvəllər Sovet İttifaqı adlanan böyük məkandakı bütün dövlətlərin sakinləri üçün nümunə olmalıdır.

**AZƏRTAC**

# Rabitə və yüksək texnologiyalar sahəsi işçiləri ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



**Dekabrın 6-da Azərbaycanda rabitə və yüksək texnologiyalar sahəsi işçilərinin peşə bayramıdır.**

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar olaraq rabitə və yüksək texnologiyalar sahəsi işçiləri dekabrın 6-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn rabitə və yüksək texnologiyalar sahəsi işçiləri ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə güllər qoyublar.

AZƏRTAC



# Müdafiə naziri ön xətt bölmələrinin döyüş hazırlığını yoxlayıb

**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti ön xətt bölmələrinin döyüş hazırlığı ilə maraqlanıb.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənova ərazinin maketi üzərində əməliyyat şəraiti barədə məruzə edildikdən sonra bölmələrin döyüşə hazırlıq vəziyyəti yoxlanılıb.

Gecə və gündüz şəraitində döyüş mühafizəsinin daha keyfiyyətli təşkili və müdafiənin dayanıqlılığın artırılması məqsədilə yaradılan müşahidə məntəqəsindən düşmən mövqelərini izləyən general-polkovnik Z.Həsənov müasir texniki vasitələrdən istifadə edilməklə xidmətin daha səmərəli təşkili ilə bağlı tapşırıqlar verib.

Ön xətdə yaradılmış təlim-tədris sahələrindən birində döyüş tapşırıqları üzrə məşq edən şəxsi heyətlə görüşən müdafiə naziri, xidmətdə fərqlənən və döyüş hazırlığında yüksək nəticələr göstərən hərbi qulluqçuları mükafatlandırıb. Nazir bölmələrin maddi-texniki təminatı, silah-sursat və hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, həmçinin sosial məişət şəraiti ilə tanış olub.

Sonra Ağdam rayonu ərazisindəki kəndlərdən birində yerli sakinlərlə görüşən general-polkovnik Z.Həsənov yaşayış məntəqələrimizin müdafiəsinin təşkili və əhalinin təhlükəsizliyinin təmin edilməsi barədə söhbətlər aparıb.

Müdafiə Nazirliyinin rəhbərliyi ilə söhbət zamanı burada yerli əhali və hərbçilər üçün yaradılan şəraitdən məmnunluqlarını bildirən kənd sakinləri müdafiə nazirindən onların minnətdarlığını ölkə rəhbərliyinə, xüsusilə Ali Baş Komandana çatdırmağı xahiş ediblər.

Sakinlər hərbçilərə etimadın yüksək olduğunu və Ordumuzun bölmələri tərəfindən bu istiqamətdə yaşayış məntəqələrinin təhlükəsizliyinin etibarlı təmin edildiyini də bildiriblər.

AZƏRTAC

# Pərviz Şahbazov səudiyyəli həmkarı ilə OPEC və qeyri-OPEC ölkələrinin əməkdaşlığının davam etdirilməsində həmfikirdir



**Vyanada səfərdə olan energetika naziri Pərviz Şahbazov Səudiyyə Ərəbistanının energetika, sənaye və təbii sərvətlər naziri Xalid Əbdüləziz Al Falih ilə görüşüb.**

AZƏRTAC-a bildirilib ki, görüşdə son dövrdə neftin qiymət dəyişikliyini şərtləndirən faktorlar, qısa və uzunmüddətli perspektivdə gözləntilər, qlobal neft bazarında tələb və təklifin vəziyyəti müzakirə edilib. Qiymət sabitliyi və balansın təmin olunması üçün hasilatın məhdudlaşdırılması təklifi ilə əlaqədar fikir mübadiləsi aparılıb. Neft bazarının tənzimlənməsi baxımından OPEC və qeyri-OPEC ölkələri arasında əməkdaşlığın 2019-cu ildə də davam etdirilməsinin vacibliyi qeyd olunub.

Söhbət zamanı "Əməkdaşlıq Bəyannaməsi" çərçivəsində Azərbaycanla əməkdaşlıq məsələlərinə toxunulub. Həmçinin Səudiyyə Ərəbistanı ilə ölkəmiz arasında enerji sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

AZƏRTAC

# "AWİTA 2018": Azərbaycanda İKT sahəsində ən uğurlu qadınlar elan edilib

**"Bakutel"in dəstəyi və Azərbaycan Qadınları İKT-də - "FEMMES DİGİTALES" klubunun təşkilatçılığı ilə sayca 2-ci "AWİTA 2018" ("The Women in İT Award") mükafatlarının təqdimat mərasimi keçirilib.**



AZƏRTAC xəbər verir ki, mükafat Azərbaycanın informasiya və kommunikasiya texnologiyaları sahəsində çalışan ən uğurlu qadınlara təqdim edilib.

Təqdimat mərasimi Bakıda keçirilən Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgisi - "Bakutel-2018" adlı Azərbaycan beynəlxalq sərgi və konfransının rəsmi açılışı münasibətilə təşkil edilən ənənəvi ziyafətlə birgə baş tutub.

"AWİTA 2018" mərasimi 500-dən çox peşəkar və qonağı toplayıb. Onlar arasında Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas, Dövlət Gömrük Komitəsinin sədr müavini İqbal Babayev, Estoniyanın Azərbaycandakı diplomatik missiyasının rəhbəri Maya Tasa, ADA Universitetinin prorektoru Fariz İsmayılzadə, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, xarici ölkələrin səfirləri, nümayəndə heyətləri və ölkənin İT sənayesinin nümayəndələri və olub.

"Bakutel"lə yanaşı, "PAŞA Bank", "B.EST Solutions", "MONT Azerbaijan", "Rabitəbank", "Bakinity", "Lilac", "R.İ.S.K", "Sinam", "Ultra", "Cybernet", "Azer Agrar", "Tovuz-Baltiya", "Microsoft Azerbaijan", "STEP İT Academy", "Synergy Partnership" şirkətləri də "AWİTA 2018" müsabiqəsinin partnyorları və sponsorları sırasındadırlar.

Müsabiqəyə 100-dən artıq ərizə daxil olub. Yekun nəticəyə görə, 11 nominasiya üzrə qaliblər müəyyənləşdirilib. İlin İnovatoru - Şəbnəm Məmmədova (kənd təsərrüfatı nazirinin İnnovasiyalar üzrə müşaviri), dövlət qurumunda fəaliyyət göstərən rəqəmsal lider - Leyla Məmmədova ("Azİntelecom"un baş direktoru), münsiflər heyətinin seçimi - Sahibə Həsənova (Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyində radiorabitə sahəsində ekspert), ilin təsisçisi, baş direktoru və yaxud İT sahəsində direktor - Naina Mehdiyeva ("Golden Pay"in baş direktoru), 2018 sahə nominasiyası: AGTECH-də qadın - Jalə Əmirbəyova (fərdi sahibkar, Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyasının sədr müavini), ilin işvərəni - "B.EST Solutions" ("Asan İmza" mobil elektron imzanın operatoru), rayon və ucqar bölgədə İT sahəsinə verilən töhfə - Bahar Abdullayeva (İ.Həsənov adına İsmayıllı rayon 1 saylı tam orta məktəbinin müəllimi), ilin innovativ müəllimi - Aliyə Əhmədova (İ.Qayıbov adına Sumqayıt şəhəri 1 saylı tam orta məktəbinin fizika-informatika müəllimi), ilin startapı - Elnarə Məmmədzadə ("Dataforest"in təsisçisi və idarəetmə üzrə partnyor), ilin proqramçısı - Ləman Qədirli (STEP İT akademiyada müəllim), İT sahəsində ilin birliyi/ İT sahəsində təhsil proqramı və ya layihəsi - Barama İnnovasiya və Sahibkarlıq Mərkəzi qalib elan olunublar.

Hər il "AWİTA" müsabiqəsi çərçivəsində Azərbaycan Qadınları İKT-də -"FEMMES DİGİTALES" klubunun fəaliyyətinin inkişafına və dəstəyində verdiyi töhfəyə görə mükafat təqdim edilir. Bu il bu mükafata Azərbaycan Respublikası Təhsil Nazirliyi, "ASAN xidmət", Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, ADA Universiteti və STEP İT Akademiyası layiq görülüblər.

"AWİTA 2018" tədbiri qadınlar arasında İT sahəsinin populyarlaşdırılmasına və təbliğinə, həmçinin Azərbaycanda texnologiyalar və innovasiyalar sahəsində qadınların nailiyyətlərinin nümayiş etdirilməsinə istiqamətlənmiş ən böyük tədbir hesab edilir.

Qeyd edək ki, İKT sahəsində Azərbaycan Qadınları - "FEMMES DİGİTALES" klubu dövlət və özəl sektorda çalışan qadınları birləşdirmək, həmçinin onların bu sahədə təhsil almaları və karyera yüksəlişinin təmin edilməsi məqsədilə yaradılıb. Bu il klub 4 yaşını qeyd edib.

AZƏRTAC

# Baş prokuror Xızıda vətəndaşları qəbul edəcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, baş prokuror Zakir Qaralov dekabrın 15-də saat 10:00-da Xızı Rayon Prokurorluğunun inzibati binasında Sumqayıt şəhərinin, Xızı, Abşeron, Qubadlı və Zəngilan rayonlarının sakinlərinin qəbulunu keçirəcək.**

Baş Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qəbulda vətəndaşların prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan müraciətlərinə baxılacaq.

Vətəndaşların qəbulla bağlı qeydiyyatı və Xızı rayonuna gəlmələri müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcək.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun müraciətlərə baxılması idarəsinin 437-28-79 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı vasitəsilə də qəbula yazıla bilərlər.

AZƏRTAC

# Azərbaycan ilə Rusiya arasında hərbi sənaye sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair müzakirələr aparılıb

**Azərbaycanda səfərdə olan Rusiya Federasiyası Sənaye və Ticarət Nazirliyinin hərbi sənaye kompleksləri departamentinin direktoru Konstantin Tarabrinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə dekabrın 6-da Müdafiə Sənayesi Nazirliyinin (MSN) nümayəndələri arasında görüş keçirilib.**

MSN-in mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan ilə Rusiyanın hərbi sənaye kompleksləri arasında əlaqələrin inkişaf etdirilməsi və əməkdaşlıq layihələri ilə bağlı fikir mübadiləsi aparılıb.

Nümayəndə heyəti səfər çərçivəsində nazirliyin müəssisələrində də olub.

Səfər bu ilin oktyabrında Azərbaycan Respublikasının müdafiə sənayesi nazirinin müavini Yəhya Musayev ilə Rusiya Federasiyasının sənaye və ticarət nazirinin müavini Oleq Ryazantsev arasında Moskvada keçirilən görüş zamanı əldə olunmuş razılığa əsasən reallaşıb.

AZƏRTAC

# Azərbaycan-İtaliya əməkdaşlığının genişləndirilməsi imkanları müzakirə olunub

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Milana səfəri çərçivəsində ATƏT Parlament Assambleyasında İtaliya nümayəndə heyətinin sədri Paolo Qrimoldi ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-İtaliya strateji tərəfdaşlığı, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları, iki ölkə arasında parlamentlərarası əlaqələr və ATƏT PA çərçivəsində əməkdaşlıq mövzuları müzakirə edilib.

Tərəflər Azərbaycanın bölgədə rolu, ölkəmizin təşəbbüsü və iştirakı ilə reallaşdırılan qlobal əhəmiyyətli layihələr, xüsusilə də "Cənub Qaz Dəhlizi" layihəsi, Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesi, eləcə də qarşılıqlı maraq kəsb edən digər regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

AZƏRTAC

# Milanda Azərbaycanın və Ermənistanın xarici işlər nazirlərinin görüşü olub

**Dekabrın 5-də İtaliyanın Milan şəhərində Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarovun ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistan Respublikasının xarici işlər naziri vəzifəsini icra edən Zöhrab Mnatsakanyan ilə görüşü olub.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, üç saatadək davam edən görüşdə tərəflərin bir-birlərinin mövqeyini daha yaxşı anlaması baxımından çox mühüm və faydalı danışıqlar aparılıb. Bu formatda danışıqların yaxın gələcəkdə, böyük ehtimalla gələn ay davam etdirilməsi razılaşdırılıb.

AZƏRTAC

*Elmar Məmmədyarov:*

# Azərbaycan torpaqlarının işğalı Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək

**ATƏT məkanında mövcud münaqişələr sülhə və təhlükəsizliyə ən ciddi təhdid olaraq qalır. Azərbaycanın prinsipial mövqeyi beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusilə də dövlətlərin beynəlxalq tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsinə əsaslanır.**



AZƏRTAC xəbər verir ki, bu fikri Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in Nazirlər Şurasının 25-ci sessiyasında çıxışı zamanı bildirib.

Nazir deyib: "Vyanada keçirilmiş Nazirlər Şurasının sonuncu sessiyasından indiyədək biz Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində heç bir konkret irəliləyiş görməmişik. Əfsuslar olsun ki, gücdən istifadə etməklə ərazilərin ilhaqının yolverilməzliyi, beynəlxalq hüququn ciddi pozulması ilə nəticələnmiş vəziyyətin tanınmaması öhdəliyi və bu vəziyyətin saxlanılmasına köməklik və ya yardım göstərilməsindən çəkinmək kimi fundamental prinsiplər vasitəçi ölkələr tərəfindən selektiv tətbiq olunur.

Eyni zamanda, biz danışıqlar formatının sual altına alınması ilə bağlı Ermənistanın davamlı cəhdlərini müşahidə etdik. Diasporunun fəal dəstəyi ilə Yerevan yüz minlərlə azərbaycanlı məcburi köçkünün, onların doğma yurd-yuvalarına qayıtmaq hüququ da daxil olmaqla insan hüquqlarının pozulması, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinin demoqrafik, mədəni və fiziki xarakterinin dəyişdirilməsi ilə bağlı qeyri-qanuni təcrübəsini davam etdirir. 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını kobudcasına pozan Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni məskunlaşmanı və digər fəaliyyətlərini davam etdirməkdədir. İşğal olunmuş ərazilərdə qeyri-qanuni hərbi və mülki infrastrukturun yaradılması da daxil olmaqla Ermənistan tərəfinin qanunsuz fəaliyyəti onun işğalı möhkəmləndirmək və baş vermiş faktla (fait accompli) üz-üzə qoymaq məqsədi daşıyan niyyətini və sistemli siyasətini nümayiş etdirir. Bu addımlar, xüsusilə də Ermənistanın imtina etməsi səbəbindən Azərbaycanın işğal olunmuş ərazilərinə faktaraşdırıcı qiymətləndirmə missiyasının göndərilməsində uğursuzluq, sülh prosesində etimada xələl gətirir".

Elmar Məmmədyarov qeyd edib ki, ATƏT-ə üzv dövlətlərin ərazilərinin Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə qarşı olan bu qanunsuz fəaliyyətlər üçün istifadə olunması tamamilə qəbuledilməzdir. Bu, müvafiq mandatlara, ATƏT-in əsas prinsiplərinə, öhdəliklərinə və qərarlarına ziddir.

BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri, Helsinki Yekun Aktının prinsipləri, ATƏT-in qərarları və sənədləri münaqişənin həllinin və Minsk Konfransının həmsədrlərinin mandatının əsasını təşkil edir. BMT-nin 1993-cü ildə qəbul etdiyi qətnamələr işğalçı qüvvələrin bütün işğal olunmuş Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını və qarşılıqlı addım kimi kommunikasiya və nəqliyyat əlaqələrinin açılmasına və məcburi köçkünlərin evlərinə qayıtmasına yardım göstərməyi tələb edir. Bu yanaşmanın əsas konsepsiyası münaqişənin nəticələrini aradan qaldırmağa, digər siyasi məsələlərin isə Minsk Konfransı çərçivəsində davam edən danışıqlar vasitəsilə həllinə əsaslanır.

"Azərbaycan hesab edir ki, sülhə, sabitliyə və qarşılıqlı faydalı regional əməkdaşlığa alternativ yoxdur və o, münaqişənin qısa zamanda siyasi həllində ən maraqlı tərəfdir. Münaqişənin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ölkəmizin suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür. Azərbaycan torpaqlarının hərbi işğalı həll yolu deyil və heç vaxt Ermənistanın istədiyi siyasi nəticəni verməyəcək", - deyə nazir vurğulayıb.

Dekabrın 5-də ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistan xarici işlər naziri ilə çox mühüm və faydalı məsləhətləşmələrin keçirildiyini qeyd edən nazir deyib: "İl ərzində ilk dəfədir ATƏT-in Minsk qrupunun həmsədrləri, Ermənistan və Azərbaycan xarici işlər nazirləri tərəfindən birgə bəyanatı razılaşdırmağa nail olduq. Ən vacib məqamlardan biri əlbəttə ki, intensiv və nəticəyə yönəlik, o cümlədən yüksək səviyyədə danışıqların aparılmasıdır. Hesab edirəm ki, Ermənistanda seçkilər yekunlaşdıqdan və yeni hökumət formalaşdıqdan sonra biz gələn il ciddi irəliləyiş əldə etməli və bölgəyə sülh, sabitlik və tərəqqinin gətirilməsi imkanını yaratmalıyıq".

AZƏRTAC

# Ceyhun Hacıbəylinin varisləri bu gün Bakının bir neçə ali məktəbində olub





**Görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Ceyhun Hacıbəylinin Bakıda səfərdə olan varisləri bu gün bir neçə ali məktəbdə görüş keçirib.**

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Hacıbəylinin gəlini və nəvəsi, eyni zamanda, dahi bəstəkar Üzeyir Hacıbəyli nəslinin davamçıları sayılan Paskal Hacıbəyli Buşe və Benjamin Hacıbəyli bu gün bəstəkarın adını daşıyan Bakı Musiqi Akademiyasını ziyarət ediblər. Burada qonaqları Akademiyanın binası ilə tanış edən prorektor Nərminə Quliyeva onlara təhsil ocağı haqqında geniş məlumat verib.

Sonra qonaqlar ADA Universitetində olublar. Universitetin rektoru Hafiz Paşayevlə keçirilən görüşdə Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov da iştirak edib. Görüşdə Azərbaycan Xalq Cümhuriyyəti, onun qurucuları ilə bağlı müzakirələr aparılıb. Cümhuriyyətin elan edilməsində böyük xidmətlər göstərmiş Ceyhun Hacıbəylinin Azərbaycanın tarixində oynadığı misilsiz rolu vurğulanıb.

Paskal Hacıbəyli Buşe və Benjamin Hacıbəyli görüşlərdən sonra İçərişəhərdə Azərbaycanın tarixi və mədəni abidələrini ziyarət edib, daha sonra Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert proqramına qatılıblar.

Qeyd edək ki, Ceyhun Hacıbəylinin varisləri Diasporla İş üzrə Dövlət Komitəsinin Cümhuriyyətin 100 illiyi ilə bağlı həyata keçirdiyi tədbirlər çərçivəsində Azərbaycanda səfərdədir.

**AZƏRTAC**

# Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Ceyhun Hacıbəylinin gəlini və nəvəsi ilə görüş olub



**Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri, görkəmli ictimai-siyasi xadim Ceyhun Hacıbəylinin Parisdə yaşayan gəlini Paskal Hacıbəyli Buşe və nəvəsi Benjamin Hacıbəyli ilə görüşüb.**

Komitədən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanda qaçqınlar və məcburi köçkünlərlə bağlı görülən işlər, onlara göstərilən dövlət qayğısı barədə ətraflı məlumat verilib. Bildirilib ki, bu məsələni sosial siyasətin prioritet istiqaməti kimi müəyyən edən Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin və maddi rifahının yaxşılaşdırılması üçün zəruri tədbirlər həyata keçirir. Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu kateqoriyadan olan vətəndaşların problemlərinin həllinə xüsusi həssaslıqla yanaşır.

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ilin "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini, Cümhuriyyətin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkəmizdə və xaricdə silsilə tədbirlərin həyata keçirildiyini diqqətə çatdıran Dövlət Komitəsinin sədri onun qurucularından biri kimi Ceyhun Hacıbəylinin də xatirəsinə xalqımızın böyük ehtiram göstərdiyini bildirib. Azərbaycana görkəmli şəxsiyyətlər bəxş etmiş Hacıbəylilər nəslinin doğma yurdu Qarabağın, Şuşa şəhərinin hələ də təcavüzkar Ermənistanın işğalı altında olduğu, orada xalqımıza məxsus zəngin maddi-mədəni irsin talan edildiyi təəssüf hissi ilə xatırladılıb. Hazırda şuşalıların da, ərazisi işğal edilmiş digər yaşayış məntəqələrimizin sakinləri kimi, məcburi köçkün həyatı yaşadığı vurğulanaraq, işğalçılıq siyasətinə son qoyması üçün onların dünya birliyindən, beynəlxalq ictimaiyyətdən Ermənistana qarşı təsirli tədbirlər gözlədiyi, həmçinin xalqımızla bağlılığı olan hər bir sülhpərvər və vicdanlı insanın bu məsələdə qətiyyətli mövqe göstərməsinin vacibliyi qeyd edilib.

Paskal Hacıbəyli Buşe və Benjamin Buşe səmimi qəbula görə təşəkkür ediblər. Artıq üçüncü dəfədir Bakıda olduqlarını deyən qonaqlar şəhərin daha müasirləşdiyini və inkişaf etdiyini qeyd ediblər. Azərbaycanda məcburi köçkünlərə göstərilən dövlət qayğısından xəbərdar olan qonaqlar bunun dünya üçün nümunəvi addım olduğunu vurğulayıblar.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# AHK Azərbaycan üzvlərinin Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevlə görüşü keçirilib

**Bu günlərdə Alman-Azərbaycan Xarici Ticarət Palatası (AHK Azərbaycan) Hyatt Konfrans Mərkəzində üzv şirkətlər üçün növbəti AHK-İmpuls tədbirini təşkil edib. Cari tədbir hazırda əmək bazarında davam etdirilən islahatlar mövzusuna həsr olunub və tədbirin fəxri qonağı Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev olub.**

Tədbiri AHK Azərbaycanın İcraçı direktoru Tobias Baumannın salamlama nitqi ilə açılıb və KPMG Azərbaycan Limited şirkətinin vergi məsələləri üzrə direktoru Rizvan Qubiyevin "Qeyri-rəsmi məşğulluq ilə mübarizənin vergi siyasəti yolu ilə tənzimlənməsində beynəlxalq təcrübə" adlı təqdimatı ilə davam edib. Sonra Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev "Azərbaycanda əmək bazarı islahatlarının həyata keçirilməsi" adlı məruzə ilə çıxış edib. İnsan amilinin dövlət siyasətinin başlıca xətti olduğunu vurğulayan S.Babayev bu il əmək bazarında aparılan islahatların 4 əsas istiqaməti əhatə etdiyini qeyd edib: Pensiyanın avtomatlaşdırılması; "DOST" mərkəzlərinin yaradılması; e-sosial internet portalının istifadəyə verilməsi və məşğulluq xidmətlərinin keyfiyyətinin artırılması. Nazir məşğulluq sahəsində elektron xidmətlərin genişləndirilməsinin və Nazirlik tərəfindən göstərilən 124 xidmətin vahid pəncərə altında, sadələşdirilmiş şəkildə və heç bir məhdudiyyət olmadan həyata keçirilməsinin, şəffaflığın və effektivliyin təminatında mühüm rol oynadığını qeyd edib.

O cümlədən qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 avqust 2018-ci il tarixli Fərmanına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) ilə bağlı layihələrinin icrası işləri yekunlaşmaq üzrədir və ilk "DOST" mərkəzinin 2019-cu ilin ilk aylarında istifadəyə verilməsi planlaşdırılır.

Vətəndaşların dövlət sosial xidmətləri ilə bağlı Nazirliyə müraciətləri əsasında toplanmış məlumatları (əmək müqaviləsi, fərdi uçot, pensiya kapitalı, sosial təminat növləri, əlillik və s. üzrə) özündə ehtiva edən "e-sosial" internet portalı artıq fəaliyyət göstərir və portalın təkmilləşdirilməsi istiqamətində aparılan işlər növbəti ildə davam etdiriləcək.

Azərbaycanda qeyri-neft sektorunun işçiləri üçün vergi yükünün azaldılmasını və məşğulluq sahəsində qanunvericiliyə edilən dəyişiklikləri müsbət hal kimi vurğulayan nazir qeyri-formal məşğulluğun qarşısının alınması və bu sahədə işlərin koordinasiyalı təşkili məqsədilə Vergilər Nazirliyi və digər aidiyyəti dövlət qurumları ilə əməkdaşlığın davam etdiriləcəyini bildirib.

Sonda AHK Azərbaycan üzvlərinin qeyd olunan məsələlər ilə bağlı suallarını cavablandıran Sahil Babayev biznes nümayəndələrini davam etdirilən islahatlar və həyata keçirilən işlərə öz rəy və təklifləri ilə dəstək verməyə çağırıb.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

# ATƏT PA girovların "hamının-hamıya" prinsipi ilə azad olunması təklifini dəstəkləyib

**Dekabrın 5-də Milanda ATƏT Parlament Assambleyasının Büro iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclasda Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev Beynəlxalq Qızıl Xaç Komitəsinin həm Ermənistan, həm də Azərbaycan tərəfindən qeydə aldığı əsir və girovların "hamının-hamıya" prinsipi əsasında azad edilməsinə dair Azərbaycan tərəfinin irəli sürdüyü təşəbbüsü Büro üzvlərinin diqqətinə çatdırıb.

Azay Quliyev deyib: "Azərbaycanın bu təşəbbüsü çox humanist bir yanaşmadır və bu təşəbbüsün ATƏT PA tərəfindən dəstəklənməsi üçün kifayət qədər əsaslar var. Təşəbbüsün reallaşması münaqişə tərəfləri arasında müəyyən bir etimad mühitini yaratmaq və sülh danışıqlarında müsbət irəliləyişə nail olmaq üçün önəmli rol oynaya bilər. Hesab edirəm ki, Ermənistanın yeni rəhbərliyi Azərbaycanın göstərdiyi xoş məramı düzgün qiymətləndirməli və danışıqlar üçün yaxşı şərait yarada biləcək bu nadir şansı qaçırmamalıdır. Buna görə Prezident Georgi Tseretelini və Büro üzvlərini bu təşəbbüsü dəstəkləməyə və məsələni Assambleyanın əsas siyasi gündəmində saxlamağa çağırıram".

Azay Quliyev, həmçinin xatırladıb ki, 4 ildir qanunsuz olaraq girovluqda saxlanılan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad olunmasına kömək etmək məqsədilə Parlament Assambleyasının demokratiya, insan haqları və humanitar məsələlər üzrə komitəsinin sədri xanım Marqareta Kiner Nellenə rəsmi məktubla müraciət edib və məsələyə insan hüquqlarının kobud şəkildə pozulması prizmasından qiymət verməyi xahiş edib.

ATƏT PA-nın prezidenti Georgi Tsereteli Azərbaycanın bu təşəbbüsünü təqdir etdiyini bildirib və bu məsələnin həlli istiqamətində müvafiq addımlar atacağını bildirib.

**AZƏRTAC**

# Milli Aviasiya Akademiyası "Web of Science" üzrə ən proqressiv universitet sertifikatına layiq görülüb

**"Azərbaycan Hava Yolları" QSC-nin Milli Aviasiya Akademiyası Təhsil Nazirliyinin dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" ilə birgə keçirdiyi tədbirdə "Web of Science" bazasına daxil olan jurnallarda dərc edilən elmi məqalələrin sayına görə ən proqressiv universitet sertifikatına layiq görülüb.**




Akademiyadan AZƏRTAC-a bildirilib ki, mərasimdə təhsil naziri Ceyhun Bayramov, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev, "Clarivate Analytics" şirkətinin konsorsium inkişafı üzrə qlobal direktoru İzabel Reiss, AMEA-nın vitse-prezidenti Dilqəm Tağıyev, ali məktəblərin rektorları, akademiyanın adından isə rektorun köməkçisi, rejim və tərbiyə işləri üzrə prorektor Ənvər Həzərxanov və tədris işləri üzrə prorektor Ədalət Səmədov iştirak edib.




**AZƏRTAC**

# British Council BMU ilə birgə layihələr həyata keçirəcək

**British Councilin Azərbaycan nümayəndəliyinin rəhbəri Summer Xia və nümayəndəliyin əməkdaşları Bakı Mühəndislik Universitetində olublar.**



Universitetin rektoru, professor Havar Məmmədov qonaqlara universitet haqqında ətraflı məlumat verib. Bildirib ki gənc universitet olan Bakı Mühəndislik Universitetində müasir mühəndislik ixtisasları ilə yanaşı, iqtisadiyyat və texniki fənnlər üzrə müəllimlik ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir. İxtisasların əksəriyyətində ingilis dilində tədris aparılır. Universitetin müasir maddi- texniki bazası və texnoparkı mövcuddur. BMU gənc universitet olsa da, beynəlxalq əlaqələri, beynəlxalq layihə və müsabiqələrdə iştirakı yüksək səviyyədədir. Sizin qurumla da uğurlu layihələr həyata keçirmişik və yeni layihələrinizdə iştirak etməyə də hazırıq. Çünki BMU-nu sahibkar universitetə çevirmək istəyirik. Bunun üçün də beynəlxalq və startap layihələrdə iştirak etmək vacibdir.

British Councilin Azərbaycan nümayəndəliyinin rəhbəri Summer Xia səmimi qəbula görə təşəkkür edərək, BMU haqqında yüksək fikirdə olduğunu qeyd edib. 25 ildir Azərbaycanda fəaliyyət göstərən British Councilin fəaliyyəti və həyata keçirəcəyi layihələr barədə geniş məlumat verib.

Görüşdə Böyük Britaniya universitetləri ilə əməkdaşlıq, ikili diplom, birgə startap və digər istiqamətlərdə layihələr təşkil etmək, universitetin ingilis dili və ingilisdilli ixtisaslarda tədris aparan müəllimlərinin dil səviyyələrinin ölçülməsi məqsədilə diaqnostik imtahanların keçirilməsi və gələcəkdə tələbələr üçün intensiv ingilis dili kurslarının təşkili kimi məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.

Sonda qonaqlarla xatirə şəkli çəkdirilib və onlara hədiyyə təqdim edilib.

**M.MİRZƏ,**
**"Respublika".**

# Ankara "Buta Airways" aviaşirkətinin Türkiyədəki dördüncü istiqaməti olacaq

**31 mart 2019-cu il tarixdən etibarən "Buta Airways" aşağıbüdcəli aviaşirkəti Türkiyənin paytaxtı Ankaraya birbaşa aviareyslərə başlayacaq. Ankara loukosterin Türkiyədə dördüncü istiqaməti olacaq. Belə ki, aviaşirkət artıq Bakıdan İstanbula, Alanyaya və İzmirə müntəzəm reyslər yerinə yetirir.**




Aviaşirkətin digər istiqamətləri kimi Bakı-Ankara (Esenboğa aeroportu, IATA: ESB) istiqaməti üzrə də minimal tarif 29 avro (bir tərəfə) təşkil edir. Uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və bazar günləri yerinə yetiriləcək.

Aviabiletləri artıq aviaşirkətin rəsmi internet saytında ("Büdcə" və "Standart" tarifləri ilə, həmçinin aviaşirkətin satış ofislərində ("Super" tarifi ilə) əldə etmək mümkündür.

Lou-kost aviaşirkət olaraq, "Büdcə" minimal tarifdə baqajın, əl yükünün daşınması, təyyarə göyərtəsində isti yeməklər, hava limanında qeydiyyat, eləcə də təyyarədə yer seçimi kimi əlavə xidmətlər ödəniş müqabilində təklif edilir.

10 kq-dək çəkisi olan əl yükü, çəkisi 23 kq-dək olan baqaj və hava limanında ödənişsiz qeydiyyatı nəzərdə tutan "Super" tarifi üzrə aviabiletləri satış ofislərində əldə edə bilərsiniz.

Saytda onlayn-qeydiyyat uçuşdan 24 saat əvvəl açılır və uçuşa 2 saat qalmış bağlanır. Onlayn-qeydiyyat bütün tariflərdə pulsuzdur.

İstanbuldan sonra Türkiyənin ikinci ən böyük şəhəri olan Ankara Anadolu yaylasında Ankara və Çubuk çaylarının qovuşmasında yerləşir. Şəhər ölkənin mühüm siyasi və iqtisadi mərkəzidir. Paytaxt statusuna baxmayaraq, Ankara turistlər üçün də maraqlıdır. Burada hələ Roma dövründən qalan çox sayda qədim diqqətəlayiq yerlər mövcuddur: Roma hamamları, Yulian sütunu və Roma məbədi. Osmanlı dövründə isə Ankarada çox sayda qədim binalar inşa olunmuşdur və həmin binalar indiyə kimi qədər qorunub saxlanılmışdır.

Bütün yenilikləri və xəbərləri "Buta Airways"in sosial şəbəkələrdəki səhifələrində izləmək mümkündür:

- facebook.com/ButaAirways
- instagram.com/ButaAirways
- twitter.com/ButaAirways
- t.me/Buta_Airways

Azərbaycanın ilk aşağı büdcəli aviaşirkəti olan "Buta Airways" "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) struktur bölməsidir. 2016-cı ilin dekabrında əsası qoyulmuş şirkət ilk reysini 2017-ci il sentyabrın 1-də yerinə yetirmişdir. Heydər Əliyev Beynəlxalq Aeroportunda yerləşən aviaşirkətin donanması müasir "Embraer" təyyarələrindən ibarətdir.

**"Buta Airways" aviaşirkətinin mətbuat xidməti.**

# AzerTelecom "BakuTel 2018" sərgisində qabaqcıl telekommunikasiya xidmətlərini təqdim edir

**Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti AzerTelecom cari ilin 7 dekabr tarixinədək Baku Expo mərkəzində keçirilən "BakuTel 2018" 24-cü Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar Sərgi və Konfransında müvəffəqiyyətlə iştirak edir.**




Belə ki, artıq 10 ildir ki, ölkənin telekommunikasiya sektorunda uğurla fəaliyyət göstərən və öz fəaliyyətində hər zaman peşəkarlıq, müştəri məmnuniyyəti, dinamik inkişaf və innovativlik prinsipini rəhbər tutan şirkət sərgi müddətində yerli və xarici ziyarətçilərə, eləcə də qurumlara internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxalq tranzit, DDoS hücum əleyhinə mühafizə xidməti, FTTx (hər hansı ünvana fiber-optik kabelin çəkilişi), Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətlərini təqdim edir.

Qeyd edək ki, sərgi günlərində Belarus, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Sinqapur, İran, Ukrayna və digər dövlətlərdən olan şirkətlərin nümayəndələri ilə müxtəlif görüşlər keçirilib, ziyarətçilərə AzerTelecom şirkəti haqqında geniş məlumat verilib, yeni əməkdaşlıq istiqamətləri müzakirə edilib.

Eyni zamanda AzerTelecom şirkətinin stendində "Huawei" şirkətinin Türkiyədən dəvət edilmiş IoT/M2M (İnternet of Things - Əşyaların İnterneti/M2M-Machine-to-Machine- Maşınlararası əlaqə) sahəsi üzrə eksperti Sertaç Şamioğlu və AzerTelecom şirkətinin Baş Kommersiya Direktoru Samir Nuriyev tərəfindən müxtəlif sahələrdə "Əşyaların İnterneti"nin tətbiqi haqda info-sessiyalar təşkil olunub, stendin ziyarətçilərinə yeni rəqəmsal texnologiyalar, ağıllı şəhər və idarəetmə, kənd təsərrüfatı və digər sahələrdə rəqəmsal texnologiyaların və telekommunikasiyanın rolu barədə müxtəlif təqdimatlar edilib.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət daim mövcud şəbəkənin yenilənməsi, infrastrukturun dayanıqlılığının artırılması, innovasiyaların tətbiqinə diqqət yetirir.

**Əli SADIQOV,**
**"Respublika".**



# NAFTALAN MÖCÜZƏLİ VƏ ŞÖHRƏTLİ GÖZƏLLİK MƏKANINA ÇEVRİLİR

**Naftalan nəinki Azərbaycanda, bütün bölgədə nadir bir gözəllik məkanına çevrilməlidir. Mən əminəm ki, bir neçə ildən sonra bölgədə Naftalan kimi gözəl, yaraşıqlı, rahat şəhər olmayacaqdır.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

Dünyanın nadir incisi olan, nəhəng Qafqazın ən zəngin torpaqlarında yerləşmiş Azərbaycan, malik olduğu zəngin yeraltı və yerüstü sərvətləri, praqmatik dövlət başçısının yüksək templə apardığı layihələr və innovatik inkişaf getdikcə daha böyük nailiyyətlər vəd edir və yeni zirvələri fəth etməsinə stimul verir. Yer üzünün belə möcüzəli və əfsanəvi məkanlarından olan şanlı Naftalana dövlət başçısının sonsuz diqqət və qayğısı nəticəsində, öz keçmiş şöhrətini qaytarmış, sözün əsl mənasında dünya səviyyəsində təbabəti, təbiəti və qonaqpərvərliyi ilə xalqımızın imicini zənginləşdirmişdir. Bu gün Naftalan dünya əhəmiyyətli balneoloji kurort kimi məşhurlaşmışdır. Dünya standartlarına cavab verən otellər, pansionatlar və parklar ansambl yaradaraq ecazkar bir mənzərə yaratmış, zövqlə salınmış yaşıl qazonlar arasından boylanan gül-çiçək ətrafa sanki təravət, ruha qida verir.

**Möhtərəm ölkə Prezidenti cənab İlham Əliyev Naftalan şəhərinə səfəri çərçivəsində ictimaiyyətlə görüşü zamanı Naftalanın inkişafının vacibliyini xüsusi qeyd edərək qarşıya belə bir vəzifə qoyaraq demişdir: "Naftalan haqqında çox eşitmişdim və burada mənim iki şey diqqətimi çəkdi. Birincisi, buranın gözəl təbiəti və şəhərin planlı şəkildə qurulması. Yəni buranın xiyabanları, yolları, küçələri, ağacları, parkları mənə çox böyük təsir göstərdi. Mən burada şəhərin elə bil ki, keçmiş gözəlliyini gördüm. Bir də demək istəyirəm ki, bugünkü gün Naftalanın yeni tarixinin başlanğıcıdır. Əminəm ki, bir neçə ildən sonra biz istədiyimizə nail olacağıq və Naftalan dünyanın ən gözəl yerlərindən birinə çevriləcəkdir". Artıq bu arzular sözdən reallığa çevrilmiş, şəhər davamlı inkişafdadır.**

Ümumiyyətlə, Naftalan şəhərinin iqtisadiyyatının əsasını kurort-sanatoriya xidməti təşkil edir. Bu zonada nadir təbii müalicə amili kimi tanınan Naftalan nefti mədənləri yerləşir. Naftalan neftinin hikməti isə hamıya bəllidir. Unikal müalicəvi əhəmiyyətə malik olan bu neftin dünyada analoqu yoxdur və bundan 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Xüsusən naftalanın hərəkət-istinad, nevroloji, damar, uroloji, ginekoloji və dəri xəstəliklərinin müalicəsində böyük əhəmiyyəti vardır. SSRİ dönəmində Naftalan Kurortu İttifaqda fəaliyyət göstərən kurortlar arasında öz müalicəvi əhəmiyyətinə və 80-85% effektlik əmsalına görə ön sırada olub. Naftalan nefti Azərbaycanın ən qiymətli təbii sərvətlərindən biridir. "Azərbaycan Respublikasında kurortların 2009-2018-ci illərdə inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq Naftalanda geniş tədbirlər həyata keçirilmişdir. Hazırda dövlət başçısının sərəncam və tapşırıqlarına uyğun olaraq dünyanın unikal şəhərlərindən biri olan Naftalanın yüksək səviyyəli sanatoriya-kurort mərkəzinə çevrilməsi ilə bağlı işlər uğurla davam etdirilir.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasına həsr olunmuş konfransda Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, "Naftalanın keçmiş şöhrəti bərpa edilir. Naftalan vaxtilə Ümumittifaq turizm mərkəzi idi. Bu gün bunu beynəlxalq turizm mərkəzinə çeviririk". Həqiqətən də, bu gün kurort şəhəri özünün inkişafının yeni mərhələsinə qədəm qoyub. Burada aparılan hər bir tikinti, quruculuq işi Naftalan kurortunun şöhrətini özünə qaytarır, müasir kurort şəhərinə çevirir və biz gələcəkdə daha böyük inkişafın şahidi olacağıq.

Hazırda küçə və yollarda, binaların həyətlərində geniş abadlıq işləri aparılır, balaca fidanların istirahəti üçün bütün lazımi şəraitlər yaradılır. Şəhərdaxili yolların asfaltlanması sahəsində də xeyli işlər görülüb. Sakinlərin və şəhərə gələn qonaqların mənalı istirahəti və asudə vaxtlarının səmərəli təşkili üçün istirahət parkları salınmışdır.

Bütün şəhər əhalisinin böyük sevincinə səbəb olan ən mühim hadisə iyul ayının 5-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naftalan şəhərinə 5-ci dəfə növbəti səfəri olmuşdur. Ümumiyyətlə, bu səfərlər ölkə başçısının Naftalan kurort şəhərinə olan diqqət və qayğısının təzahürüdür. Möhtərəm Prezident həmin gün müasir səviyyəli yeni şəhər xəstəxana binasının açılış mərasimində iştirak etmiş, tibb işçiləri ilə görüşmüş, Naftalanın inkişafı ilə bağlı tapşırıqlar vermişdir.

Naftalan nefti əsasında müalicə olunmaq istəyən turistlərin, eləcə də səhhətində müəyyən problemlər olan insanların sayının çoxluğu nəzərə alınaraq şəhərdə daha bir müalicə mərkəzi inşa olunmuş və cari ilin yay mövsümündə istifadəyə verilmişdir. Ümumi sahəsi 300 kvadratmetrə yaxın olan yeni müalicə mərkəzi 2 mərtəbədən, 12




otaqdan ibarətdir. Burada 15 nəfər daimi işlə təmin olunmuşdur. Hazırda Yeni Avtovağzal otel kompleksində davam etdirilən tikinti işlərində 30 nəfər çalışır. İnşaat işləri yekunlaşdıqdan sonra burada 40-50 nəfərin daimi işlə təmin olunması nəzərdə tutulur. Yenidən qurulan 10 mərtəbəli Naftalan mehmanxanasında 30 nəfər müvəqqəti işlə təmin edilib. Hazırda binada işlər davam etdirilir. Mehmanxana Naftalan Hotel & SPA adı altında fəaliyyət göstərəcəkdir. Bura istifadəyə verildikdən sonra 55 nəfər daimi işlə təmin ediləcəkdir. Dövlət başçısının yeni iş yerlərinin açılması ilə bağlı göstərişi əsasında dövlət qurumları tərəfindən verilən vakansiyalar əsasında Naftalanda 226 nəfər işlə təmin olunmuşdur. Şəhərdə aparılan abadlıq və təmizlik işləri üzrə isə 150 müvəqqəti yeni iş yeri yaradılmışdır. Məşğulluq Mərkəzinə müraciət edən 492 nəfər işaxtarandan 232 nəfəri işlə təmin olunmuşdur ki, onlardan 87 nəfəri qadınlardır. Ümumilikdə son illərdə sahibkarlar tərəfindən tikilib istifadəyə verilmiş müasir səviyyəli yeni müalicə və istirahət mərkəzlərində hazırda 1000 nəfərə yaxın vətəndaş işləyir.

Ölkə başçısının 7 aprel 2016-cı il tarixli "Əhalinin özünüməşğulluğunun təmin olunması sahəsində əlavə tədbirlər haqqında" Sərəncamına uyğun olaraq işaxtaran aztəminatlı şəhər sakinlərinin özünüməşğulluğa cəlb edilməsi 2017-ci ildə daha da genişləndirilmiş və şəhər üzrə özünüməşğulluğa cəlb olunanların sayı 53 nəfərə çatdırılmışdır. Hazırda həmin 53 nəfər vətəndaş özünüməşğulluq təlimlərinə cəlb edilmiş və yaxın günlərdə təlimlərdə özünüməşğulluq fəaliyyəti üçün potensial imkanları nəzərə alınmaqla yüksək nəticə göstərən şəxslər biznes planlarında nəzərdə tutulmuş profil üzrə mal-qara və avadanlıqlarla təmin olunacaqlar. Bu layihədə əsas məqsəd ona yönəlib ki, həmin vətəndaşlar öz ailələri və həyat səviyyələrinin yüksəldilməsi üçün uğurlu biznes qura bilsinlər.

Təhsil, səhiyyə, mədəniyyət və idman sahəsi şəhər icra hakimiyyəti tərəfindən daim diqqət mərkəzində saxlanılır. Şəhərin təhsil müəssisələrində Təhsil şöbəsinin tədbirlər planına uyğun olaraq müvafiq işlər görülmüş, təhsil müəssisələrinə daim nəzarət edilir, tədrisin keyfiyyətinin yaxşılaşdırılması məqsədilə tədbirlər görülür. Şəhər İcra Hakimiyyəti tərəfindən məktəblərdə davamiyyətə, dərs prosesinin gedişatına mütəmadi olaraq nəzarət edilir və istedadlı gənclərin aşkara çıxarılması sahəsində məqsədyönlü işlər aparılır.

Şəhərin ümumtəhsil məktəblərinin şagirdlərindən ibarət qrup "Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində Lənkəran, Masallı və Astara marşrutu üzrə növbəti maarifləndirici tur-aksiyaya qoşulmuş və həmin bölgələrin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış olmaq imkanı əldə etmişlər.

Heydər Əliyev Mərkəzinin ideoloji mərkəz kimi işinin təşkili, ulu öndərin həyat və fəaliyyətinin, zəngin dövlətçilik irsinin öyrənilməsi məqsədilə Mərkəzdə illik iş planı əsasında ardıcıl işlər aparılır. "Müasir Azərbaycanın banisi, xilaskarı və qurucusu Heydər Əliyev" və "İlham Əliyev Heydər Əliyev siyasi kursunun davamçısıdır" və digər mövzularda tədbirlər təşkil olunur. Eyni zamanda, YAP Naftalan şəhər təşkilatının Gənclər Birliyinin təşkilatçılığı ilə gənclər mütəmadi olaraq Mərkəzdə görüşlər, tədbirlər təşkil edirlər. Təkcə bu il Heydər Əliyev Mərkəzinə 2637 nəfər ekskursiya etmişdir ki, onlardan 309 nəfəri xarici ölkə vətəndaşı olmuşdur. Heydər Əliyev Mərkəzi ilə tanış olan hər bir şəxsə Mərkəzin əməkdaşları tərəfindən ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotoşəkillər barədə geniş məlumat verilmişdir.

Şəhər gənclər və idman idarəsi bədən tərbiyəsi və idmanın inkişaf etdirilməsi, yeniyetmə və gənclərlə işin təşkili istiqamətində də xeyli işlər görmüşdür. Çox sevindirici haldır ki, şəhərin gənc idmançıları və Uşaq-Gənclər İdman məktəbinin məşqçi-müəllimləri respublika, zona və hətta digər ölkələrdə keçirilən turnirlərdə uğurlu çıxış edərək yüksək göstəricilər əldə etmişlər. Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin təşəbbüsü ilə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar və Təhsil nazirlikləri ilə birgə Azərbaycan Dövlət Televiziyasının bazasında "Mən Azərbaycanlıyam" adlı intellektual telelayihədə Naftalanı təmsil edən gənc birinci yeri qazanaraq yarışın qalibi olmuşdur.

Dövlət başçısının tapşırığına əsasən bu il də fevral ayından başlayaraq şəhərin səhiyyə müəssisələri tərəfindən əhalinin icbari tibbi müayinəsi tədbirlərinə başlanılmış, müəyyən olunmuş müddət ərzində icbari tibbi müayinə tədbirləri yüksək keyfiyyətlə başa çatdırılmışdır. Müayinə dövründə 7 mindən çox sakinin pulsuz tibbi müayinədən keçməsi təmin edilmişdir.

Ölkə Prezident cənab İlham Əliyevin iştirakı ilə açılışı olan müasir yeni 60 çarpayılıq şəhər xəstəxanası 1,2 hektar ərazidə yerləşir. Tikintinin ümumi sahəsi 8000 kvadratmetrdən çoxdur. Xəstəxanada cərrahiyyə, doğum bloku, doğumdan sonrakı fizioloji və hamiləliyin patologiyası şöbələri yaradılıb. Bu müəssisənin laboratoriya şöbəsi ən müasir avadanlıqla təchiz olunub. Bu da laborator müayinələri yüksək keyfiyyət, dəqiqlik və qısa müddətə aparmağa imkan verir. Burada, eyni zamanda, şüa diaqnostika, qəbul, poliklinika, reanimasiya, intensiv terapiya şöbələri fəaliyyət göstərəcək. Əməliyyat bloku da müasir tibbi avadanlıqla təmin edilib. Xəstəxananın bütün şöbələrində ən müasir tibb avadanlıqları quraşdırılıb. Bu dövlət tərəfindən həm tibb işçilərinin iş şəraitinin yaxşılaşmasına, həm də şəhər əhalisinə göstərilən tibbi xidmətin səviyyəsinin yüksəlməsinə əvəzsiz töhfədir.

Bu gün Naftalan şəhərinin bütün sahələrdə inkişafının əsasını ölkə başçısının irəli sürdüyü proqramların və qarşıya qoyduğu vəzifələrin uğurlu icrası təşkil edir. Məhz bu tapşırıqların yerinə yetirilməsinin nəticəsidir ki, Naftalanda istər turizm, istərsə də şəhərin infrastrukturunda irimiqyaslı layihələr həyata keçirilmiş, böyük quruculuq işləri aparılmış və bu gün də davam etdirilir. Şəhər sakinlərinin mənzil-kommunal şəraitinin yaxşılaşdırılması istiqamətində bir neçə il bundan əvvəl mövcud problemlərin həlli istiqamətində başlanmış layihələrin icrası uğurla davam etdirilmişdir. Dövlət proqramlarının icrası nəticəsində şəhərdə istilik, qaz, su-kanalizasiya təchizatının yaxşılaşdırılması sahəsində işlər tam başa çatdırılmışdır.

Şəhərdə görülmüş və hazırda uğurla davam etdirilən işlər əhali tərəfindən rəğbətlə qarşılanır. Həyata keçirilən tədbirlər nəticəsində vətəndaşların həm kommunal sahədə, həm də ümumi həyat şəraitlərində mövcud olan bir sıra problemlər öz həllini tapmışdır. Küçələrdə, çoxmənzilli yaşayış binalarının qarşısında səliqə-sahman yaradılmış, mini parklar, piyada yolları salınmışdır. Heydər Əliyev parkına, Şıxəli Qurbanov küçəsindəki mini parka və şəhərdaxili yolların kənarına ümumilikdə 5000 kvadratmetr əraziyə qazon döşənmiş, 1000-dən artıq müxtəlif növ dekorativ ağac və gül kolları əkilmişdir. Şəhərdən Xəstəxana istiqamətinə gedən yolun sağ və sol hissəsində 1500-ə yaxın Eldar şamı əkilmiş, sözügedən yola yeni yol daşları, işıq dirəkləri düzülmüş, səki salınmış və asfalt örtüyü vurulmuşdur. Şəhərin girişindən başlayaraq bütün elektrik dirəkləri rənglənmiş, 1 nömrəli tam orta məktəbdən Heydər Əliyev parkı istiqamətində olan yol işıqlandırılmışdır. Uzun müddət baxımsız qalmış şəhərdəki Üçbulaq adlanan bulağın ətrafı təmizlənərək abadlaşmış, ətrafına tamet daş döşənmiş və bulağa suyun verilməsi bərpa olunmuşdur. Səməd Vurğun parkında təmir işlərinə başlanılmışdır. Səki daşlarının altı mişar daşı ilə hörülmüş və 1575 m səki daşı düzülmüşdür. Səkilərə qum, çınqıl qarışığı verilmiş, metal tor qoymaqla 3000 kvadratmetrə düzülmüşdür. Parkda ümumi sahəsi 250 kvadratmetr olan müasir standartlara uyğun və bütün fəsillərdə istifadəsi nəzərdə tutulan açıq və qapalı kafenin tikintisi işləri aparılır. Bundan başqa, parkda ümumi sahəsi 34 kvadratmetr olan 4 girişli sanitar qovşağının özülü betonlanmışdır. Parkdakı əsaslı təmir işlərinin ilin sonunadək başa çatdırılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, hazırda Nəriman Nərimanov parkında da təmir işlərinə başlanmışdır. 3 beşmərtəbəli yaşayış binasının girişləri əsaslı təmir olunmuş, suvaq və rəngləmə işləri aparılmışdır. Pilləkən və məhəccərlər təmir edilmişdir. Hazırda 23 nömrəli çoxmənzilli yaşayış binasının girişində təmir işləri davam etdirilir. Qeyd olunan işlər mərhələli şəkildə digər binalarda aparılacaqdır.

Rabitə xidmətinin yaxşılaşdırılması məqsədilə blokları təmir olunan çoxmənzilli yaşayış binalarında rabitə xətləri dəyişdirilərək yeniləri ilə əvəzlənmişdir. Qaşaltı Qaraqoyunlu kəndində əhalinin telefona olan tələbatını ödə-



mək məqsədilə 1 ədəd 16 abonentlik abunəçi kartı və 1 ədəd 48 portluq ADSL avadanlığı quraşdırılaraq sakinlərin istifadəsinə verilmişdir. Qurban Namazəliyev adına yaşayış massivində yeni dirəklər basdırılmış, növbədə olan 129 nəfərə yeni telefon xətti çəkilmişdir. Sözügedən yaşayış massivində sakinlərin tam telefonlaşması işləri davam etdirilir. Qasımbəyli kəndində istismara yararsız rabitə kabellərinin bir hissəsi yenisi ilə əvəz olunaraq texniki normalara uyğun çəkilmişdir. Şəhər üzrə 1110 abunəçi yüksəktezlikli internet xidmətlərindən istifadə edir.

Əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə abonentlərə öncədən ödəmə sistemli smart elektron su sayğaclarının quraşdırılması davam etdirilmiş, artıq 789 abonent bu sayğacdan istifadə edir. Su və kanalizasiya xətlərində baş vermiş qəza halları qısa müddətdə aradan qaldırılmışdır. Hazırda Naftalan şəhərində sutkalıq məhsuldarlığı 3000 kubmetr olan bioloji tipli Çirkab Suların Təmizləyici Qurğusunun tikintisinə başlanılmışdır. Bu qurğu istismara verildikdən sonra Naftalan şəhərində yaranan tullantı suları təmizlənib zərərsizləşdiriləcək və ətraf mühitə ziyan vurmadan kənarlaşdırılacaqdır.

Ümumilikdə son illərdə Naftalan həm nadir müalicəvi neftinə, həm də müalicə və istirahət üçün yaradılan müasir infrastrukturuna görə turistlər üçün cəlbedici məkana çevrilmişdir. Buna görə də ildən-ilə burada dincələn və müalicə olunan turistlərin sayı artır. Cari ilin 9 ayında Naftalan şəhərinin kurort-sanatoriya və istirahət mərkəzləri 28 mindən çox turist qəbul etmişdir. Bunlardan 8874 nəfəri xarici turist olmuşdur. Xarici ölkələrdən gələnlərin sayında 2017-ci ilin 9 ayı ilə müqayisədə 26,3 faiz artım müşahidə olunmuşdur. Bir faktı da qeyd etmək lazımdır ki, "Chinar", "Gashalti Health Hotel" və "Garabag Resort & SPA" otellərində Novruz bayramı və sonrakı ilk 3 gün ərzində boş yer olmayıb və ümumilikdə həmin günlərdə 2500 nəfərdən çox turist müalicə almışdır.

Hazırda şəhərdə fəaliyyət göstərən 3-ü beş ulduzlu olmaqla 10 sanatoriya və müalicə mərkəzi 2200 turisti qəbul edə bilir. Amerika Birləşmiş Ştatlarının geniş auditoriyaya malik olan "Con Batçelor Şou" radioverilişinin aparıcısı Con Batçelor Azərbaycana səfəri zamanı Naftalan şəhərinə də səfər etmiş və radioverilişin reportajlarından birini möcüzəli və şəfaverici Naftalan neftinə həsr etmişdir.

Naftalan kurort şəhərinin inkişafı və keçmiş şöhrətinin bərpası ölkə başçısının daim diqqətdə saxladığı məsələlərdəndir. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli müavafiq Fərmanı Naftalan şəhərinin perspektiv inkişafına təkan verən strateji qərarlardan biridir. Strateji Yol Xəritəsinin tədbirlər planının 3.1.-Sağlamlıq turizmi üçün tələbatın yenidən formalaşdırılması bölməsində Naftalanda turizmin inkişafı məqsədilə mühüm tədbirlərin; Naftalan nefti əsasında mövcud və yeni sağlamlıq məhsullarının təşviqi, Naftalanda turistlər üçün digər cəlbedici yerlərdə bərpa və yenidənqurma işlərinin aparılması, eləcə də Bakı və Naftalan arasında sürətli və yüksək keyfiyyətli avtobus və qatarların istifadəyə verilməsi işlərinin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Strateji Yol Xəritəsinin müvafiq bəndlərinin icrası ilə bağlı hazırda Naftalan neftinin müalicəvi əhəmiyyətinin, həm də "Chinar Hotel & Spa Naftalan"ın və "Gashalti Health Hotel"in Avropa ölkələrində tanıdılması məqsədi ilə sözügedən turizm obyektlərinə Avropa standartlarına uyğunluq sertifikatı verilmişdir. Eyni zamanda, Naftalan nefti əsasında məhsullar hazırlayan "Qətransız Naftalan məlhəmi" MMC-nin istehsal etdiyi məhsulların "Made in Azerbaijan" brendi altında xarici bazarlara çıxarılır və bu istiqamətdə işlər aparılır. Bu həm şəhərin iqtisadiyyatının inkişafına və həm də Naftalan neftinin tanıdılmasına əlavə təkan verəcəkdir.

İnamla demək olar ki, möcüzəli Naftalan qədim və şərəfli tarixinə ehtiramı və nəsillərə yadigar qalacaq möhtəşəm tikililəri, mədəniyyəti, əfsanəvi müalicəvi kurort və sanatoriyaları, milli mənəvi dəyərləri qoruyub saxlanması ilə ən yeni tarixinin şərəfli səhifələrinə uğurla imza atdığını işi və əməli ilə bir daha sübut edir.

Dövlət proqramlarında Naftalan şəhəri üzrə nəzərdə tutulmuş tədbirlərin uğurlu icrası nəticəsində bu möcüzəli kurort şəhəri günü-gündən genişlənərək, kompleks inkişaf edərək, dünyanın ən gözəl, təmiz və müasir kurort şəhərlərindən birinə çevrilmişdir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**









## Açıq tenderin müddətinin uzadılması barədə

Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Kadastrı və Ünvan Reyestri Xidmətinin tabeliyində "Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 16 oktyabr 2018-ci il tarixində elan edilmiş GPS-lərin, kompüter dəstlərinin, noutbukların, planşetlərin, printer-skanerlərin və UPS-lərin satın alınması üzrə açıq tenderin müddəti Lot 1 üzrə (GPS-lərin satın alınması) 10 (on) bank günü uzadılmışdır.

İddiaçılar tenderdə iştirak etmək üçün ilkin sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 17 dekabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək), tender təklifini və tender təklifinin bank təminatını isə 25 dekabr 2018-ci il tarixinə qədər (saat 17.00-dək) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklifləri 26 dekabr 2018-ci il tarixində (saat 15.00-da) Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi, 269 ünvanında açılacaqdır.

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 13.11.2018-ci il tarixdə keçirilmiş 1 lot üzrə "Bakı Metropoliteni" QSC-nin Bənövşəyi xətti üzrə şərti adı "B03" stansiyasında "Qatarların hərəkət istiqaməti göstəricisi sistemi" və "Sərnişin məlumat sistemi" üçün monitorların alınması, quraşdırılması və işə buraxılması işlərinin "Açıq Tender" üsulu ilə satın alınmasına dair müsabiqədə "Consquare Consultancy and Services Company" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə lot-1 üzrə 03.12.2018-ci il tarixdə ƏDV daxil 269035,28 (iki yüz altmış doqquz min otuz beş manat 28 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

**"Bakı Metropoliteni" QSC-nin Tender Komissiyası.**

## Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Şamaxı Rayon Statistika İdarəsi üçün inzibati binanın tikintisi məqsədilə layihə-smeta sənədlərinin hazırlanması üzrə işlərin satınalınmasına dair

## KOTİROVKA SORĞUSU ELAN EDİLİR

